# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Nüfuzlu beynəlxalq mükafatların daşıyıcısı

HEYDƏR ƏLİYEV FONDU

3


№ 024 (7192)

11 fevral 2025-ci il.
Qiyməti 60 qəpik


## Qarabağ və Şərqi Zəngəzurun turizm imkanları



2

*Azərbaycanı qüdrətli dövlətə çevirəcəyini bəyan edən Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasət nəticəsində respublikamız siyasi-iqtisadi və mədəni mərkəz, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi tanınıb. Bu illər ərzində Azərbaycanda bütün sahələr yenilənib, müasirləşib.*

# "Avropanı oğurlamaq" planı



10

## Tramp bunu necə bacaracaq?

### Alternativ enerji: daha uzunömürlü dünya



10

### Aldadıcı bank reklamları nə vaxta qədər davam edəcək?




16

### Azərbaycana Avropa Şurası lazımdırmı?




8

### Mirzə Cəlil günündə Molla Nəsrəddinlə söhbət




5

### "Kəndə qayıdış" proqramı elan edilsin...



4

# Qarabağ və Şərqi Zəngəzurun turizm imkanları

*Azərbaycanı qüdrətli dövlətə çevirəcəyini bəyan edən Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasət nəticəsində respublikamız siyasi-iqtisadi və mədəni mərkəz, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi tanınıb. Bu illər ərzində Azərbaycanda bütün sahələr yenilənib, müasirləşib. Ən başlıcası, insanların həyat səviyyəsi dəyişib, əhalinin rifahı daha da yaxşılaşıb, həyatımızın bütün sahələri yeni, modern əsaslarla qurulub. Bütün sahələrdə həyata keçirilən layihələr Azərbaycanın hər bir bölgəsində turizm üçün geniş imkanlar açıb. Ölkəmizin flora və faunası, zəngin tarixi mədəniyyət abidələri turistlər üçün maraq kəsb etdiyindən bura səfər edənlərin sayı nəzərəçarpacaq dərəcədə artıb.*

30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızın da turizm potensialı genişdir. 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu. Bu gün işğaldan azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl kimi rayonların turizm potensialı böyükdür. Bu ərazilərdə aparılacaq abadlıq-quruculuq işləri turistlərin diqqətini həmin məkanda



olan flora və faunaya, mədəniyyət abidələrinə cəm edəcək. Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və s. daş yaddaşa çevrilib. Ermənilərin qurbanına çevrilən abidələrimiz bərpa və təmir ediləcək, yeni həyatlarına qovuşurlar. Əminliklə vurğulayaq ki, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Mir Möhsün Nəvvabın ev muzeyi və s. məkanlar çoxsaylı turistlərin ziyarətgahına çevriləcək. Bu onu deməyə əsas verir ki, yaxın zamanlarda Azərbaycanın turizm məkanlarının coğrafiyası daha da genişlənəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, ”Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək”.

### HADRUTUN TARİXİ HİSSƏSİ YENİDƏN QURULUR

İşğalan azad olunan ərazilərimiz sırasında Hadrut qəsəbəsi də var. 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa etdi. Vətən müharibəsinin ilk günlərində Hadrutun azad edilməsi Azərbaycan Ordusunun döyüş meydanındakı üstünlüyünü daha da gücləndirdi. Çünki Hadrut, ilk növbədə, ermənilərin daha çox möhkəmləndiyi strateji mövqe olmaqla yanaşı, həm də düşmənin Füzuli və Cəbrayıl istiqamətlərinə əlavə qüvvə göndərməsi üçün mühüm bir ərazi idi. Lakin müzəffər Azərbaycan Ordusunun planlı və peşəkar əməliyyatı erməniləri cəbhənin hər bir istiqamətində məğlub etdiyi kimi, Hadrutda da darmadağın olmasına gətirib çıxardı. Müzəffər Ali Baş Komandanımızın dəmir iradəsi və uğurlu ”Dəmir yumruq” əməliyyatı ilə qısa bir zamanda işğalda olan torpaqlarımız azad olundu. Xalq-Ordu-Lider birliyi sayəsində bu Qələbəni qazanmış olduq. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

Müharibə bitdikdən sonra abadlıq-quruculuq işləri qısa bir zamanda sürətləndi. Hadrutda da böyük bir canlanma müşahidə olunur, Hadrutun bərpası işlərinə start verilib. Hadrutun tarixi hissəsi yenidən qurulur.



### “BİZ HADRUTU BEYNƏLXALQ MƏDƏNİYYƏT VƏ TURİZM MƏRKƏZİNƏ ÇEVİRMƏK ƏZMİNDƏYİK”

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd edib ki, biz Hadrutu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik. Bu gün artıq qəsəbənin tarixi hissəsində mərkəzi məhəllənin bərpası və abadlaşdırılması nəzərdə tutulub. Hadrutun tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpası, həmin ərazinin abadlaşdırılması planlaşdırılır. Məhz bu hissədə bərpa və konservasiya işləri gələcəkdə Hadrutda aparılacaq tarixi tikililərin bərpa işləri üçün ilkin təcrübə olacaq və digər işlər bu təcrübəyə əsaslanaraq aparılacaq. Məbəd sonuncu dəfə 1621-ci ildə bərpa olunub. Bu məbədin divarlarında daha qədim dövrdə tikilmiş abidənin daşlarından istifadə edilib. Buna görə də Qafqaz Albaniyası dövrünə aid məbəd və onun ətrafında Dövlət Turizm Agentliyi tərəfindən bərpa və abadlaşdırma işləri görülməzdən əvvəl burada elmi-tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulur. Çünki işğal dövründə Hadrutda olan bir sıra abidələr kimi, bu məbədin də tarixi mənşəyinə ermənilər tərəfindən müdaxilələr edilib.

Yerli əhəmiyyətli memarlıq abidəsi kimi rəsmi olaraq dövlət mühafizəsinə götürülən məbəd kompleksinin ərazisində onlarla qəbir daşı yerləşir. Bununla əlaqədar ərazinin arxeoloji cəhətdən tədqiq edilməsinə ehtiyac yaranıb. Hadrutun mərkəzi hissəsində yerləşən tarixi mülkün bərpa edilərək, Turizm Məlumat Mərkəzi kimi fəaliyyət göstərməsi nəzərdə tutulur. Mərkəzdə Hadruta gələn ilk turist qruplarına qəsəbə və ətraf kəndlərdəki turizm obyektləri haqqında məlumat veriləcək.

### TURİZM ÜÇÜN ƏLVERİŞLİ MƏKAN

Azad olunmuş ərazilərimizin hər məkanı turizm üçün əlverişli məkandır. Zəngin Qarabağ torpağı istənilən əcnəbi turistin marağından kənar qala bilməz. Məlumdur ki, tarixi kökü olmayan və ərazinin tarixi ilə heç bir bağlılığı olmayan ermənilər 30 ilə yaxın işğal dövründə qəddarcasına Qarabağın və ətraf rayonların təbii landşaftı, tarixi-memarlıq abidələri, tranzit-kommunikasiya şəbəkəsi dağıdıb, bir sözlə turizm infrastrukturunu tamamilə məhv ediblər. İşğal dövründə adı ”Qırmızı Kitab”a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələrə zərbə vurulub. Adı ”Qırmızı Kitab”a salınmış Kəlbəcər rayonunda yerləşən ayıfındığı növündən ibarət 968 hektar meşə hazırda kütləvi qırılıb və mebel istehsalı üçün Ermənistana göndərilib. Qarabağ torpağının işğal dövründə təbii sərvətlərinin ermənilər tərəfindən özbaşına istismar olunması, ekoloji durumuna ağır zərbə vurulması faktları Ermənistanın həyata keçirdiyi sivil vəhşilik siyasətidir. Belə ki, Füzuli rayonunda işğal olunmuş ərazilərdə təbiətin ermənilər tərəfindən güclü ekoloji dağıntıya məruz qalması hər kəsə bəllidir. Rayonun ən böyük meşələrindən olan Ərgünəş meşəsində ermənilər yanğın törətmişdilər. Yanğın nəticəsində ərazidə olan qiymətli ağac və kollar məhv olmuş, təbiətə xeyli ziyan vurulmuşdur. Belə yanğınlar ekoloji mühitin pozulmasına, heyvanat aləminin tələf edilməsinə və atmosferin çirklənməsinə səbəb olur.




Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. İstirahət üçün böyük məkan olan və ekoloji cəhətdən əhəmiyyət daşıyan ”Daş-başı” və ”Leşkar” meşələrində ermənilərin yanğın törətmələri də hər kəsin xatirindədir. ”Leşkar” meşə sahəsində isə yararlı ağaclar tam qırılıb. Xatırladaq ki, Laçın dövlət yasaqlığında cüyür, qaya keçisi, çöl donuzu, ayı və s. quşlardan isə turac, kəklik və s. məskunlaşmışdır. Burada 1989-cu ildə aparılan yoxlanmada: dağ-keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 320 baş, ayı 110 baş, canavar, porzuq, dələ və s. heyvanlar, quşlardan qırqovul 200, kəklik 1500 məskunlaşmışdır. Qubadlı dövlət yasaqlığında isə işğaldan əvvəl müəyyən olmuşdur ki, burada 101 baş çöl donuzu, 21 baş qonur ayı, 35 baş çüyür, 420 baş dovşan, 25 baş canavar, 310 baş çaqqal, 75 baş porsuq vardır. Quşlardan ən çox kəklik yayılıb. Qırqovul, turac, bildirçin, göyərçin bu yerlərin daim sakinlərindəndirlər. Belə bir səfalı yerlərə malik, turizmin inkişafına böyük təkan olacaq yerlərimizin ermənilərin əlində 30 ilə yaxın qalması Azərbaycanın iqtisadi inkişafına, onun turizm imkanlarının genişlənməsinə zərbə vurmuşdur. İşğal dövründə ermənilər bu xəzinədən vəhşicəsinə istifadə etmişdirlər. Cənnətməkan hesab olunan ərazilərimizi xarabalığa çevirən ermənlər yaxın bir zamanda buranın əvvəlkinən də gözəl bir məkan olacağının şahidi olacaqlar. Öz milli xüsusiyyət və tələbatlar çərçivəsində bu məkanlarda ab-hava yaradaraq Qarabağı turistlərin ən çox maraq göstərdiyi bir mərkəzə çevirəcəyik.

***Zümrüd BAYRAMOVA***

# Nüfuzlu beynəlxalq mükafatların daşıyıcısı

## Heydər Əliyev Fondu "Təhsil və sosial müdafiə layihəsi"nə görə mükafata layiq görülüb

HEYDƏR ƏLİYEV FONDU

***Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında özünü göstərir. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, Onun yaratdığı milli dövlətçilik ideyalarının yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Fondun genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurmasına gətirib çıxarıb.***

Heydər Əliyev ideyalarını dəstəkləyərək, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə fəaliyyətini davam etdirir. Elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirilir. Azərbaycan cəmiyyətinin yaratdığı hüquqi normalardan yararlanan və bu prinsiplər əsasında dünyaya qapı açan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Fondunun prezidenti Mehriban xanım Əliyeva ictimai-siyasi, mədəni, sosial proseslərdə fədakarlıq nümunəsini göstərir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xeyriyyəçilik fəaliyyəti, bu Fondun mədəniyyət və səhiyyə sahəsində həyata keçirdiyi irimiqyaslı layihələr, o cümlədən talassemiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı və talassemiyaya tutulmuş uşaqlar üçün ixtisaslaşdırılmış mərkəzin yaradılması və s. onun xrүriyyəcilik əməllrinə söykənir. "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramına uyğun olaraq Azərbaycanın bir sıra rayon və kəndlərində yeni məktəb binalarının inşa, təmir və bərpa olunaraq istifadəyə verilməsi bu görülən işlərin davamı olaraq reallaşır. Belə ki, məktəblər müasir avadanlıqlarla təchiz edilərək, dünya standartlarına uyğun qurulur ki, bu da təhsilin keyfiyyətinə müsbət təsirini göstərməkdədir. Demək olar ki, Azərbaycanın hər bir məkanında təhsil sahəsində aparılan bu dəyişikliklər özünü büruzə verir. Azərbaycanın gənc nəsli biliyə, müasir texnologiyalara, elmə yiyələnərək, dünya təhsil sisteminə inteqrasiya olunur. Bu uğurlu addım Fondun başlıca vəzifəsi olaraq davam etdirilir. Fond tərəfindən Gürcüstanda, Hollandiyada, Misirdə, Pakistanda, Rumıniyada, Rusiya Federasiyasında bir sıra məktəblər yenidən qurulmuş və əsaslı təmir olunmuşdur.

Təhsil və sosial müdafiə sahəsində irimiqyaslı layihələri ilə tanınan Heydər Əliyev Fondu İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) və Həmdan bin Rəşid Al Məktum Fondunun 4-cü birgə "Həmdan-ICESCO" mükafatının qalibləri sırasında yer alır. Mükafat İslam dünyası ölkələrində tədris müəssisələrinin inkişafına və təhsil mühitinin dəstəklənməsi təşəbbüslərinə töhfələrə görə təqdim edilir. Bu il yeddi ölkədən doqquz təhsil təşəbbüsü birincilik uğrunda mübarizə aparıb. Heydər Əliyev Fondu təkcə İslam dövlətlərində deyil, müsəlman dünyasından kənarda da məktəblərin tikintisi və bərpasını həyata keçirən "Təhsil və sosial müdafiə layihəsi"nə görə mükafata layiq görülüb.

Cəmiyyətdə bərabər təhsil imkanlarının yaradılması, gənc nəslin biliklərə yiyələnməsi, ümumilikdə təhsil sisteminin inkişaf etdirilməsi məqsədilə Heydər Əliyev Fondu "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramını, "Yeniləşən Azərbaycana yeni məktəb" və "Təhsilə dəstək" layihələrini uğurla həyata keçirir. 2005–2014-cü illər ərzində "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində respublika üzrə onlarla uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmişdir. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkənin müxtəlif bölgələrində məktəb binaları inşa olunmuş və yenidən qurulmuşdur. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinə artan tələbatı nəzərə alaraq Fond 2014-cü ildə "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramını həyata keçirməyə başlayıb. Proqrama əsasən, müəssisələr təmir olunur, yeni binalar inşa edilir.

### DÜNYA ÖLKƏLƏRİ İLƏ SALINAN KÖRPÜ

Məktəblilərin dünyagörüşünü genişləndirmək, onların təhsil və elmə marağını artırmaq məqsədilə Fond mütəmadi olaraq təhsildə xüsusilə fərqlənən, müxtəlif müsabiqələrdə qələbə qazanan məktəblilərin dünyanın müxtəlif ölkələrinə səfərlərini təşkil edir, həmçinin digər ölkələrdən olan uşaqların Azərbaycana gəlməsinə və ölkəmizin tarixi, zəngin mədəniyyəti ilə tanış olmasına geniş imkan yaradır. Belə ki, Fondun təşəbbüsü və dəstəyi ilə azərbaycanlı məktəblilərin Almaniya, Belçika, Fransa, Gürcüstan, Niderland və Rumıniyaya, ABŞ, Gürcüstan, Rumıniya və Rusiya Federasiyasından olan məktəblilərin isə Azərbaycana səfərləri təşkil olunmuşdur.

Xarici ölkələrdə də sosial layihələr həyata keçirən Fond Haitidə, İranda, Türkiyədə, Pakistanda zəlzələnin, Rumıniyada təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına yardım etmişdir. 2011-ci ilin sentyabrında Fransa Prezidenti Nikola Sarkozinin dəstəyi və Fransa Terror Qurbanları Assosiasiyası, eləcə də Beynəlxalq Terror Qurbanları Təşkilatının təşəbbüsü ilə Parisdə terrorizm qurbanlarına həsr olunmuş 7-ci Beynəlxalq Konqresin keçirilməsinə maliyyə yardımı edilmişdir. Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda yenidən qurulmuş "Dostluq parkı", Həştərxanda Rusiya-Azərbaycan Dostluq Körpüsü, Rusiyanın Volqoqrad şəhərində "Volqoqrad-Bakı Dostluq Parkı"stifadəyə verilmişdir.

Bakının Xətai rayonundakı Əbilov yaşayış massivində yəhudi uşaqlar üçün Heydər Əliyev Fondu və "Or-Avner" Fondu tərəfindən inşa edilmiş 450 yerlik təhsil mərkəzi "Xabad-Or-Avner" təhsil mərkəzi fəaliyyət göstərir. 450 yerlik mərkəzin digər təhsil müəssisələrindən fərqi burada yəhudi mədəniyyəti əsaslarının tədris olunmasıdır. Belə ki, mərkəz etno-mədəni komponentlidir. Mehriban xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Həştərxan vilayətində və şəhərində bir sıra sosial layihələr həyata keçirilib. Həştərxanda Ulu Öndər Heydər Əliyevin abidəsi ucaldılıb və onun adını daşıyan park salınmış, Həştərxan vilayətində N.Nərimanov adına park abadlaşdırılmış, Həştərxan şəhərində 11 nömrəli ümumtəhsil məktəbinin binası yenidən qurulmuş, yeni korpusu inşa edilmiş, həmin məktəbin nəzdində müasir uşaq bağçası tikilib istifadəyə verilmiş, "Azərbaycan-Rusiya Dostluq Körpüsü" açılmış, "Meçta" uşaq əyləncə şəhərciyi salınmış, Müqəddəs Knyaz Vladimirin abidəsi ucaldılmış və ətrafında müasir park salınmışdır.

Heydər Əliyev Fondu əksər Afrika ölkələri üçün bir nömrəli problem olan – içməli su ilə təchiz məsələsinə öz töhfəsini verib. Belə ki, Fondun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində Ruandanın Şərq əyalətinin administrativ mərkəzi Rvamaqana şəhər məktəbi içməli su ilə təchiz edilib.

### SAĞLAMLIĞIN QORUNMASINA DƏYƏRLİ TÖHFƏLƏR

Fondun səhiyyə ocaqlarının bərpa edilməsi və inşası ilə bağlı layihələri də öz nəticəsini vermiş bu gün tibbi müəssisələr dünya standartlarına uyğun inkişaf etmiş ölkələrdən gətirilmiş müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur. Belə ki, Fondun həyata keçirdiyi sosialyönlü layihələr sırasında "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" və s. layihələri xüsusi olaraq vurğulamaq lazımdır. Fondun humanitar yardımı çərçivəsində əldə etdiyi böyrək hemodializ aparatları ilə bir sıra tibb müəsisələri təmin edilmişdir. Heydər Əliyev Fondunun "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. Bu gün ölkəmizdə uşaqlar ən keyfiyyətli insulinlə təmin olunurlar. Fondun dəstəyi ilə ölkəmizdə uşaqlar üçün qastroenteroloji sanatoriya, psixo-nevroloji mərkəz istifadəyə verilmişdir. Paytaxt və regionlarda mütəmadi olaraq qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqlar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir.

Fond tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasında yaxından iştirak edir. Onu da bildirək ki, səhiyyə yönümlü layihələr sırasında Heydər Əliyev Fondunun fəaliyyətində uşaqlar arasında mövcud olan talassemiya xəstəliyinin qarşısının alınması üçün preventiv tədbirlər, maarifləndirmə işlərinin aparılması, qan testlərinin keçirilməsi, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı məsələlər də yer alır. Səhiyyə sahəsində görülən işlər, həyata keçirilən layihələr Heydər Əliyev Fondunun əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrdir. Bu qayğı humanizmin ən nümunəvi göstəricisidir.

### "BİZ MÜSƏLMAN ÖLKƏSİYİK, LAKİN, EYNİ ZAMANDA, DÜNYƏVİ DÖVLƏTİK, BİZİM DÜNYƏVİ ƏSASLARIMIZ VAR"

Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında əhəmiyyəti ilə seçilir. Bu gün deyə bilərik ki, dünyanın bütün ölkələrində Fondun həyata keçirdiyi layihələrə münasibət yüksəkdir. "Əlbəttə, biz müsəlman ölkəsiyik, lakin, eyni zamanda, dünyəvi dövlətik, bizim dünyəvi əsaslarımız var. Biz öz dinimizə, ənənələrimizə dərin hörmət və ehtiram bəsləyirik. Lakin bizdə dövlət və din bir-birindən ayrıdır və düşünürəm ki, bu məsələdə heç bir problem yoxdur. Mən buna tamamilə hazıram, bunu hər hansı çağırış hesab etmirəm",- deyə Mehriban xanım Əliyeva bildirib. Onun dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülməsi də elə bu bəşəri dəyərlərə münasibətinin və fəaliyyətinin nəticəsidir. Azərbaycanın Birinci Xanımı sivilizasiyalararası dialoqa töhfə verməklə yanaşı, məktəblərin tikintisinə, dini məbədlərin bərpasına da köməklik göstərir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazılıb. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

Fəaliyyəti dövründə həyata keçirdiyi bu və ya digər layihələr Fondun qeyri-hökumət təşkilatı olaraq təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun gələcək fəaliyyətinin əsasında qeyd etdiyimiz bu və digər məsələlərin daha da geniş bir planda həyata keçirilməsi dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Türk dünyası bütövləşir

## Qırğızıstan-Türkiyə əlaqələri kimləri narahat edir?

"Ortaq türk keçmişindən - Ortaq türk gələcəyinə!" - bu, təkcə dövrümüzün şüarı deyil, həm də Turana gedən yolun istiqamətidir. Son iyirmi ildə Azərbaycan Prezidenti cənab İlham Əliyev və Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğanın səyləri sayəsində Türk Dövlətləri Təşkilatı inkişaf edir. Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Macarıstan, Şimali Kipr Türk Cümhuriyyəti və digər hələlik muxtar respublikalar, vilayətlər şəklində olan toplumlar birləşməyi, bütövləşməyi, böyük Turana çevrilməyi hədəfləyiblər. İqtisadi əlaqələr hər gün inkişaf edir, birgə istehsallar genişlənir...

Qırğızıstan və Türkiyə hərbi məhsulların birgə istehsalı və üçüncü ölkələrə ixracı da daxil olmaqla, müdafiə sahəsində əməkdaşlığı genişləndirməyə hazırlaşır. Qırğızıstan Respublikasının Müdafiə Nazirliyinin məlumatına görə, respublikanın müdafiə-sənaye potensialının gücləndirilməsini nəzərdə tutan müvafiq sazişin ratifikasiyası haqqında qanun layihəsi parlamentə təqdim olunub. Türkiyə və Qazaxıstan arasında analoji razılaşma fonunda bu addım, məsələn, nəqliyyat marşrutlarının təhlükəsizliyinin təmin edilməsi bəhanəsi ilə Türkiyənin bölgədəki hərbi mövcudluğunun mümkün gücləndirilməsi ilə bağlı ekspertlərin narahatlığını artırır. Qırğızıstan-Türkiyə münasibətləri "hərtərəfli strateji tərəfdaşlıq" səviyyəsinə çatıb, prezident Sadır Japarov prezident Rəcəb Tayyib Ərdoğanın ötən ilin noyabrında səfərinə yekun vurarkən deyib. Bunu imzalanmış sənədlər paketi, o cümlədən müdafiə sektorunda əməkdaşlığın genişləndirilməsinə dair saziş də təsdiq edir.

Qırğızıstan parlamentinin rəsmi saytında yerləşdirilən məlumata görə, sənəd iki ölkənin müdafiə idarələri arasında çoxşaxəli qarşılıqlı fəaliyyəti nəzərdə tutur: silahların birbaşa tədarükü, hüquq-mühafizə orqanlarının ehtiyac duyduğu müxtəlif növ müdafiə sənayesi məhsullarının və xidmətlərinin birgə istehsalı və üçüncü ölkələrə satışı; mövcud avadanlığın saxlanılması, təmiri və modernləşdirilməsi, o cümlədən texnologiyaların ötürülməsi, müvafiq strukturlar arasında təlim və sənəd mübadiləsi. Qırğızıstan hökuməti müdafiə-sənaye potensialının inkişafı yolu ilə ölkəsinin müdafiə qabiliyyətinin gücləndirilməsi üçün bu sazişin strateji əhəmiyyətini vurğulayır. Layihənin maliyyələşdirilməsi hər iki tərəf tərəfindən öz milli qanunvericiliyinə uyğun olaraq təmin ediləcək. İmzalanmış saziş Bişkek və Ankaranın hərbi sahədə əməkdaşlığı dərinləşdirmək istəyini simvolizə edir.

Qırğızıstanın Türkiyə ilə hərbi əməkdaşlıq haqqında sazişi ratifikasiyası Ankaranın Türk Dövlətləri Təşkilatının (TDT) yaradılması ilə başlayan Mərkəzi Asiyada genişmiqyaslı strategiyasının bir hissəsidir. Türkiyənin əməkdaşlığın iqtisadi, təhsil, mədəni və hazırda hərbi aspektlərini əhatə edən hərtərəfli yanaşması uzunmüddətli geosiyasi məqsədlərə xidmət edir. Bu əməkdaşlığın mümkün nəticəsi regionda Türkiyənin hərbi varlığına da səbəb ola bilər, məsələn, nəqliyyat marşrutlarını qorumaq üçün.

Ankara Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstanın dəmir yollarını Türkiyənin nəqliyyat şəbəkəsi ilə birləşdirəcək Nəvai-Türkmənbaşı-Bakı-Tbilisi-Qars dəmir yolu nəqliyyat dəhlizindən istifadə imkanlarını nəzərdən keçirir. Türkiyə Pekin ilə birlikdə türk dünyasının bütün ölkələrini birləşdirəcək Transxəzər nəqliyyat marşrutu layihəsini həyata keçirir. Bu dəhliz sayəsində Türkiyə özünü Orta Asiyaya birbaşa çıxışı təmin edəcək ki, bu da həm sənaye mallarının ixracını, həm də xammal idxalını artıracaq. Layihənin həyata keçirilməsi təkcə logistika və iqtisadiyyat sahəsində deyil, həm də mühüm infrastruktur obyektlərinin mühafizəsi məsələlərində səylərin əlaqələndirilməsini tələb edəcəkdir. Bu, kibertəhlükəsizlik, terrorizmlə mübarizə və xarici müdaxilələrə qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyətin gücləndirilməsini nəzərdə tutur ki, bu da OTG-nin daha da gücləndirilməsi istiqamətlərindən birinə çevrilə bilər.

Region ölkələri ilə hərbi sahədə əməkdaşlığın genişləndirilməsi müntəzəm birgə təlimlər, o cümlədən xüsusi təyinatlıların təlimi fonunda baş verir ki, bu da silahlı qüvvələrin döyüş hazırlığını yüksəltməklə yanaşı, taktiki yanaşmaların unifikasiyasına imkan verir. Sonuncu yanvarın 20-dən fevralın 7-dək Türkiyənin Qars vilayətində baş tutub - "Kış-2025" ("Qış 2025"). Onlarda Türkiyə hərbçiləri Azərbaycan, Bosniya və Herseqovina, Gürcüstan, Qazaxıstan, Kosovo və Özbəkistanın hərbçiləri ilə birlikdə iştirak ediblər. Ən məşhur silahlardan biri də Tacikistan istisna olmaqla, Orta Asiya ölkələrinin orduları ilə xidmətdə olan türk pilotsuz təyyarələridir. Qırğızıstan, respublikanın Dövlət Milli Təhlükəsizlik Komitəsinin rəhbəri Kamçıbek Taşiyevin sözlərinə görə, son iki il yarım ərzində ölkənin silahlı qüvvələri üçün silah və maddi-texniki təchizat alınmasına 1,3 milyard dollardan çox vəsait xərcləyib. Ola bilər ki, pilotsuz təyyarələr, eləcə də digər silah növləri Qırğızıstanda istehsal olunsun və müvafiq olaraq üçüncü ölkələrə ixrac edilsin.

Türkiyə NATO ölkəsidir, bu o deməkdir ki, Ankaranın istehsal edib region ölkələrinə satacağı silahlar NATO tipli silahlar olacaq və onlar da NATO standartlarına uyğun olaraq Qırğızıstanda istehsal olunacaq. Və əgər hər hansı bir ölkə rəsmi olaraq heç bir sənəd imzalamadan belə bu silahların istehsalına başlayarsa, bu, qaçılmaz olaraq Qırğızıstanın müdafiə sənayesinin Qərb standartlarına yönləndirilməsinə gətirib çıxaracaq. 2025-ci ilin yanvarında Türkiyə ilə Qazaxıstan arasında hərbi əməkdaşlıq haqqında analoji saziş imzalanıb. Özbəkistanla da analoji saziş bağlana bilər və Özbəkistanın rəsmi bloklara qoşulmamaq statusu və onun ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə qarşı mövqeyi nəzərə alınmaqla, əməkdaşlıq formatı fərqli ola bilər.

Qazaxıstanın təhlükəsizlik üzrə eksperti, ehtiyatda olan təhlükəsizlik qüvvələrinin polkovniki Amanjol Urazbayevin sözlərinə görə, Qazaxıstan üçün prioritet Türkiyə və UTC ölkələri ilə müdafiə sənayesi sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi, hərbi mübadilə proqramlarının genişləndirilməsi və birgə istehsalın yaradılmasıdır. Onun fikrincə, bu, ölkənin digər hərbi-siyasi formatlardakı öhdəliklərini istisna etmir, əksinə, ona milli suverenliyin qorunması və dəyişən çağırışlara uyğunlaşma imkanlarını genişləndirməyə imkan verir.

**V.VƏLİYEV**



Elçin Bayramlı

# "Kəndə qayıdış" proqramı elan edilsin...

***Dövlətin tənzimləyci, yönəldici və stimullaşdırıcı funksiyasının detallarında aqrar siyasətin mahiyyəti gizlənir. Belə ki, müvafiq statistika bu sahədə dövlət siyasətini aydın göstərir. Aqrar sektorun inkişafı üçün dövlət dəstəyinin artması yeganə şərt deyil, məsələ həm də ayrılan vəsaitlərin effektiv idarəedilməsindən ibarətdir. Əgər aqrar sektora ayırılan dövlət yardımları düzgün idarə olunsa, nəticədə kənddə iş imkanları və məhsul istehsalı həcmi getdikcə artar. Bu da öz növbəsində ÜDM-in artması ilə əlaqədar olaraq idxaldan asılılığın azalması, qeyri-neft ixracının artması, büdcəyə ödənişlərin çoxalması kimi iqtisadi vəziyyətin, məşğulluğun azalması, qiymətlərin aşağı düşməsi kimi sosial vəziyyətin yaxşılaşmasına gətirib çıxarar.***

Çox təəssüf ki, bu gün ÜDM-də regionların payı çox azdır. Bu da həm əhalinin yarısının bir zonaya toplaşması, həm iqtisadi kativliyin bakı və Abşeronda daha yüksək olması ilə bağlıdır. Əlbəttə, burada neft qaz sektorunun da mühüm rolu var. Ölkəmizdə əhalinin balanssız yerləşməsi ötən əsrin 90-cı illərinin əvvələində meydana çıxdı- regionlarda zavod və fabriklər bağlandıqdan, təsərrüfatlar işini dayandırdıqdan, işsizlik vüsət aldıqdan sonra əhalinin əksər hissəsi iş tapmaq üçün paytaxta axın etdi. Hazırda Bakıda, ümumiyyətlə, Abşeron yarımadasında ölkə əhalisinin yarısı - təxminən 5 milyon nəfərə yaxın insan cəmləşib.

Bu gün paytaxtda cəmləşən kənd əhalisinin böyük əksəriyyətinin kəndlərdə evi, torpağı və s. mülkiyyəti var. Bunlar bir növ daxili köçkünlərdir və öz yurdlarına qayıda bilərlər. Sadəcə onlara öz doğma yerlərində iş qurmaq üçün şərait yaradılmalı, dövlət dəstəyi gücləndirilməlidir.

Əlbəttə, son dövrlərdə ölkənin tarazlı və davamlı sosial-iqtisadi inkişafı üçün dövlət tərəfindən bir çox proqramlar həyata keçirilib. Xüsusən də, Regionların inkişafına Dövlət Dəstəyi proqramları bu istiqamətdə bəzi nailiyyətlərin əldə olunmasına gətirib çıxarıb. Hazırda qeyri neft sektorunun payı neft sektorunu keçib.

Regionlarda iqtisadi aktivliyin təmin olunması ölkənin tarazlı və balanslı inkişafını təmin edə bilər. Bu istiqamətdə ən effektiv proqramlardan biri də Özünüməşğulluq proqramıdır. Əhalinin işsiz hissəsi özünə kiçik biznes, istehsal və xidmət sahəsində fərdi iş qurmaq üçün bu proqrama müraciət edir və həmin iş üçün zəruri olan bütün avadanlıqlar, aparatlar və sə ləvazimatlar, həmçinin kəndlərdə, toxum, meyvə tingləri, malqara və sairlə təmənnasız təmin olunur. Bunun sayəsində, on minlərlə işsiz vətəndaş özünə iş yeri qurub. Nəticədə, həm ölkədə istehsal artır, həm xidmət sahələrində yeni iş sahələri yaranır, on minlərlə insan işlə təmin olunur, son nəticədə həm dövlət büdcəsinə vergi ödənişləri artır, həm sosial prolemlər azalır.

Fikrimizcə, bu istiqamətdə tədbirlərin və iqtisadi proqramların effektivliyini artırmaq üçün hökumət "Kəndə qayıdış" proqramı elan etməli, regionlarda yeni kiçik müəssisələrin, təsərrüfatların açılmasına daha böyük fikir verməlidir. Çünki, regionlarımızda iş üçün bütün imkanlar var- işçi qüvvəsi, xammal, nəqliyyat infrastrukturu, yaxın bazarlar və s. Sadəcə, həm dövlət, həm də qeyri-dövlət investisiyaları regionlara yönəldilməli, güzəştli kreditlər, subsidiyalar artırılmalı, vergi və s. güzəştlər tətbiq edilməlidir. Xüsusilə, kiçik sahibkarlığa tam şərait yaradılmalıdır, bu, işsizlik problemini də birdəfəlik həll edə bilər. Buna görə də, bölgələrdə özünüməşğulluq proqramının miqyası və həcmi kəskin artırılmalıdır.

Bunun üçün müvafiq maliyyə ehtiyatlarımız da var. Məsələn, Neft Fondunun xarici fondlarda 1-2 faizlik gəlirliliklə saxladığı strateji ehtiyatlarımızın bir qismini geri çəkib, ölkə iqtisadiyyatına invest etmək mümkündür. Bu, dəfələrlə daha artıq gəlir gətirəcək. Xaricdən aldığımız gündəlik tələbat mallarının çox böyük hissəsini özümüzdə istehsal etmək üçün bütün imkanlar, xammal da var, sadəcə istehsal avadanlıqlarını alıb gətrmək kifayətdir. Ən pis halda yerli tələbatı ödəyəcəyik və xaricdən idxala yönələn külli miqdarda valyuta ölkəmizdə qalacaq.

Xüsusilə də, kənd təsərüfatı, aqrar sənaye və yüngül sənaye sahələrinə daha çox üstünlük verməliyik. Qlobal iqtisadi böhranlar zamanı ölkələrarası ticarəti xeyi zəifləyir, ekoloji problemlər bir çox ölkələrdə ərzaq və dərman çatışmazlığına səbəb olur. Əgər qlobal vəziyyət bir qədər də gərginləşsə və ya dünyada digər gözlənilməz problemlər yaransa, ölkələr öz ümidinə qalacaq. Bu şəraitdə biz istənilən qlobal böhranlara və fors-major hallarına hazır olmalıyıq. Bunun üçün də ölkəmizin potensialından maksimum istifadə etməliyik.

# Mirzə Cəlil günündə Molla Nəsrəddinlə söhbət




***– Ey Şərqin müdrik ağsaqqallı Molla Nəsrəddin! Sən bir əsrdən çox əvvəl bizi – Azərbaycan xalqını, müsəlman qardaşlarını deyib gəlmişdin. Böyük demokrat yazıçı və görkəmli ictimai xadim Cəlil Məmmədquluzadənin ideyalarından, xalqını, millətini necə görmək istəyindən, dövrün ən müasir inqilabi məsələlərindən danışmağa, din pərdəsi altında min bir oyundan çıxıb milləti cəhalətə sürükləyən "ruhanilərin" iç üzünü açmağa gəlmişdin. Sən ana dilimizin qayğıkeşi oldun.***

Ömrünün sonunadək doğma dil uğrunda mübarizə apardın. Millət sevdasından "Dəli" olub, "bəlkə millətimə bu cür təsir edə bilərəm", – dedin. Bunun yetərli olmadığını görəndə düşüncələrindəkini "Lağlağı"lıqla anlatmağa çalışdın. "Yox, bundan da fayda olmadı, bunlarla yenə də milləti oyada bilmədim", – deyə fikirləşərkən "Molla Nəsrəddin" oldun. Vətənini el-el, oba-oba səyahətə çıxıb hər təbəqə ilə "öz dili" ilə danışmağa başladın, bəlkə oyanalar, bəlkə dəyişələr, – deyə. Molla Nəsrəddin, ağsaqqal sözü dinlənilən olar, – deyib səni yuxuya getmiş bir xeyli müsəlmanı oyatmaqda ona kömək etməyə çağırmışdı böyük Cəlil Məmmədquluzadə. Mən də Cəlil Məmmədquluzadə kimi dahimizin doğum günündə səni deyib gəlmişəm, bizə Mirzə Cəlildən danış, özündən söhbət aç, necə












gəldin, səni necə qarşıladılar, necə yola saldılar, bundan söhbət et, biz də maraqla dinləyək...

– Cəlil Məmmədquluzadə "bu gün" idi. Milləti isə "dünən"də qalmışdı. Böyük canyanğısı ilə onları səsləyirdi: dünənlərdən bu günlərə səsləyirdi. Onu çox gözəl anlayırdım, ona görə də sözünü yerə salmağa haqqım yox idi. Gəldim, 1906-cı ilin 20 aprelində Mirzə Cəlilə köməyə gəldim və onun redaktorluğu ilə iyirmi beş il ərzində fəaliyyətimizi Tiflisdə, Təbrizdə və Bakıda böyük uğurla davam etdirdik. Gəldiyim gün üz tutdum millətə: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükamalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər.

Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər "xa-xa!.." edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəkləriniz ilə üz-gözünüzü silib, "lənət şeytana!" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.

Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxınız camalınıza.

Sözümü tamam etdim, ancaq bir üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən siz ilə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir, amma hərdənbir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi və qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırı biçarə ananız sizə deyirdi: "Bala, ağlama, xortdan gələr, səni aparar" və siz dəxi canınızın qorxusundan səsinizi kəsib ağlamaqdan sakit olurdunuz.

Hərdənbir ana dilini danışmaq ilə keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?!"

Fəaliyyətimizə ana dilini qorumaqla başlamışdıq. Çünki milləti yuxudan oyatmaq üçün lazım olanların ən ümdəsi dil idi. "Dil" ucbatından "Anama de ki, Fatmanın oğlu oldu"nu "Fatmanın oğlu öldü" kimi oxuyub az qala bir ananın ürəyini partladan Molla Cəfəri ittiham eləmədik, dilimizi bəyənməyib başqa dildə danışan "Bizim"obrazovannı"lar"ı qofta (küftə) atəşinə tutmadıq, "Meymunlar" kimi bir-birini yamsılayıb özgə dildə danışın, Fatmanı "Fatya", Həsəni "Qasanka" Münəvvəri "Varya" çağıranlara qarşı üsyankar olmadıq? "Əlifba" dan söhbət açıb millətin yarısının ərəb, fars, bir yarısının da rus dilində danışmasını səhifələrimizə çıxarıb "Molla Nəsrəddin"in münasibətini bildirmədik? Öz dilində danışmayanları qınamaq necə olar ki? Bax biz belə yazmışdıq: "... Allah atana rəhmət eləsin, bəs ta hanı türk dili? Qardaş, zarafat deyil ki, dilimizdən iyrənirik, vəssalam!

Uca papaqlılarımız bir-birinə kağız yazanda yazır: "və nigarani nədarim səvayi əz duri və mofariqəti şoma".

Alçaq papaqlılarımız da bircə il qorodskoy şkolada uçit eləyəndən sonra küçədə bir iznakomini vstret eləyəndə o saat şapqasını çıxarıb deyir:

– İzdrasti, bacalusqa".

– Cəlil Məmmədquluzadənin "Azərbaycan" məqaləsi isə onun vətəndaşlıq qayəsi idi: " Bəzi vaxt otururam və papağımı qarşıma qoyub fikrə gedirəm, özümdən soruşuram ki:

– Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

– Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.

– Dilim nə dilidir?

– Azərbaycan dilidir.

– Yəni Vətənim haradır?

– Azərbaycan vilayətidir.

– Haradır Azərbaycan?

– Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxilindədir "

Böyük mirzəcəlilşünas, akademik İsa Həbibbəyli özünün "Cəlil Məmmədquluzadə – Milli İstiqlal ədəbiyyatının sərkərdəsi" adlı məqaləsində yazır: "1917-ci ildə yazılmış "Azərbaycan" məqaləsində Mirzə Cəlil vaxtilə Şah İsmayıl Xətainin qılıncı ilə çəkdiyi Azərbaycan xəritəsini böyük məharətlə qələmi ilə cızmışdır. "Azərbaycan" məqaləsi Cəlil Məmmədquluzadənin Azərbaycançılıq konsepsiyasının bəyannaməsidir: Cəlil Məmmədquluzadə Azərbaycan xalqı üçün Vətən, millət və ana dilindən başqa nicat yolu olmadığını var-gücü ilə car çəkmişdir. Vətən, millət və dil məsələləri Cəlil Məmmədquluzadə yaradıcılığının əsas sütunlarıdır".

– Bəli, Cəlil Məmmədquluzadə qələmi ilə birgə azad Vətən, xoşbəxt millət naminə axtarışa çıxmışdı. Hələ "Mozalan", "Hop-hop", "Lağlağı", "Hərdəmxəyal" millət, Vətən adına bir qulluq eləmək niyyətilə rusların "zadaça" dediyi 18 məsələdən ibarət "Təzə təlim kitabı" cəm etmişdilər ki, cəmiyyətin bütün eybəcərlikləri bu məsələlərdə öz həllini tapmışdı. Amma nə fayda? Bunları dərk edən kim idi? "Niyə məni döyürsünüz?" – deyib, "Niyə mən dərsdən qaçdım"ı anladanın: – "A mollalar, niyə məni döyürsünüz? Olmaya məndən qorxursunuz? Olmaya qorxursunuz ki, əyilib camaatın qulağına bir neçə söz pıçıldayam, bir neçə mətləblərdən agah edəm? Olmaya qorxursunuz ki, məcmuəmin vərəqlərini nökərlər samovar alışığı edə-edə və şəkillərini uşaqlar oynada-oynada axırda camaat gözünü açıb bəzi işlərdən xəbərdar ola?" səsinə səs verən kim idi?

"Molla Nəsrəddin" deyirdi ki, "Biz" "Nə vaxt" , "Bəs nə vaxt" "Azadiyi-vicdan" olacağıq. "Fürsət" tapıb" xalqa "Bir para sözlər" dinlədib, "Oktyabr kimin bayramıdır?"ı açıqlaya və onlara "İnqilab lazım" olduğunu anlada biləcəyik? "İfratın mənfəəti"nin "Tərəqqi əlamətləri" olduğunu "Müsəlman içində gördüklərim"dən fərqliliyini sübut edə biləcəyik? "Çox qəribə" idi ki, "Molla Nəsrəddin" dəfələrlə yazsa da, millətə üz tutub onlara hüquqlarından, azad yaşamağın gözəlliyindən bəhs etsə də, onun "Nəsihət"ini dinləyən yox idi.

Ardı Səh. 6



# Mirzə Cəlil günündə Molla Nəsrəddinlə söhbət

**Əvvəli-Səh-5**

Lakin mollanəsrəddinçilər bu yoldan çəkinmir, yorulmur, usanmır, “Müsəlman”lara “Qatıq ağdırmı, qaradırmı?” ilə “İsti su-soyuq su”yun fərqini yenə də izah edir və bu yolda mübarizəni böyük yanğı ilə davam etdirirdilər.

– “Molla Nəsrəddin” milləti doğru yola tək yazmaqla deyil, həm də şəkillərlə, karikaturalarla dəvət edirdi.

– Jurnalın rəngarəng çıxmasında, bəzən şəkillərin, karikaturaların sanki “dil açıb” danışmasında rəssamlar – Əzim Əzimzadə, Oskar Şmerlinq, İosif Rotterin böyük əməkləri olmuşdur. Birinci nömrəmizin üz qabığında həmvətənlərimizi yatmış vəziyyətdə göstərən bir rəsm çəkdirib dərc etmişdik. Bununla da ümumi amalımızı, məqsədimizi ortaya qoymuşduq. Onları oyandırıb söylədiklərimizə qulaq asmaqlarını xahiş edirdik. Çünki “Molla Nəsrəddin”i Azərbaycan xalqının min illərdən bəri davam edib gələn dərdləri çox düşündürürdü. Bu dərdlər içərisində dini fanatizm daha dəhşətlisi idi. O dövrün cəmiyyətində dini əldə rəhbər tutub bundan yararlanan ruhanilərə hər addımda rast gəlinirdi. Onların sayı sanki yağışdan sonra çıxan göbələklər kimi gündən-günə artırdı. Dinin mahiyyətini bilməyənlərə, bundan suistifadə edib camaatın malını tar-mar edənlərə, onları mövhumata sürükləyib elmdən, təhsildən yayındıranlara, azadlığı, intibahı din pərdəsi altında kəsib-doğrayanlara qarşı “Molla Nəsrəddin” üsyan edib deyirdi: – “Əvvələn, mən molla ola-ola müsəlman qar-









daşlarıma vəz edən vaxt deyirəm: Bir Allaha sitayiş edin, bir də Peyğəmbərə və imamlara itaət edin. Amma siz deyirsiniz: Allaha da sitayiş edin, Peyğəmbərə də, imamlara da, mollalara da, dərvişlərə də, ilan oynadanlara da, fala baxan, tas quran, dua yazan, cadukün, həmzad, əcinnə, kəllə, dimnə, şeytan, div, mərrix, sərrix, tərrix, amax, saşan, küflə qurdu, mığmığ, mozalan – bunların cümləsinə sitayiş edin!

...Mən də mollayam, siz də molla. Amma mən müsəlman qardaşlara deyirəm: ey müsəlmanlar, gözünüzü açınız, mənə baxınız; amma siz mollalar deyirsiniz: ey müsəlmanlar, gözünüzü yumunuz, mənə baxınız.

...Mən də mollayam, siz də mollasız. Amma bir balaca təfavütü budur ki, mən heç olmasa bir parça qalın kağız üstünə bir neçə nağıl-nuğul yazıb ilan-qurbağa şəkli çəkirəm ki, oğul-uşaq şəkillərə baxıb gülsünlər və nökərlər kağızını alışıq edib, asanlıq ilə ocağı yandırsınlar... Siz mollalar deyirsiniz:

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın!

Yatmışları razı deyiləm kimsə oyatsın.

Tək-tək ayılan varsa da haqq dadıma çatsın!

Mən salim olum, cümlə cahan batsa da batsın!

Millət necə tarac olur-olsun, nə işim var?

Düşmənlərə möhtac olur olsun, nə işim var?”

Nə deyirdi ki, “Molla Nəsrəddin”? “Məscidlərimiz”də “Din”lə, “Dindarlıq”la məşğul olan dırnaqarası mollaların “Din və millət”in başına açdığı oyunlardan danışırdı. “Oruc yeyənlərin və oruc tutanların hesabı”ndan “Orucu batil eləyən şeylər”ədək açıb tökürdü ortaya. Camaatı yoldan çıxarıb günlərlə çölün düzündə, günün altında yağış üçün “Müsəlla” ya vadar edənlərin fitnə-fırıldağını lağa qoyub gülürdü. “Ruzi-aşura”dan ta “Aşura oğruları”nın hərəkətlərinədək xalqa bəyan edirdi. Küçələrdə zəncir vurub özünə zərər verən, “Baş yarmaq”la qanlarını axıdanlara üz tutub: “Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır!” – deyirdi. Amma yenə də nə fayda? “Molla Nəsrəddin” nəşrindən düz 20 il sonra “hələ ayılmayıb”, – deyə hayqıranda, qonşunun “Kim ayılmayıb?” sualına “Hələ dəm alır”, – dedi: “Ayılmayan həmin mənim millətimdir ki, iyirmi il bundan qabaq mən onu yuxuda qoyub gəldim”.

– Cəlil Məmmədquluzadəni dinsizliklə ittiham edirdilər.

– “Molla Nəsrəddin” Azərbaycanda milli satirik mətbuatın və tənqidi-realist ədəbiyyatın əsasını qoymuşdu. Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri kimi görkəmli sənətkarları öz ətrafında toplayan dərgi açıq söz söyləyirdi, düz yol göstərirdi. Yalanı qamçılayırdı, haqsızlığı kəsirdi, ədalətsizliyə meydan oxuyurdu, fırıldaqçılara müharibə elan edirdi. Məqsəd dövrün ziyalılarının düşüncələrindəki Azərbaycanı görmək idi. Azərbaycan xalqını, millətini hər xalqdan, millətdən öndə görmək idi. Onları fanatizm, mövhumat girdabında yox, inkişaf, intibah yollarında görmək idi. Elə bütün bunlara görə də məlum qüvvələr Mirzə Cəlili dinsizliklə, “Molla Nəsrəddin”i Allahsızlıqla damğalamaq istəyirdilər. O necə Allahsız idi ki, ədəbiyyat aləmi ilə tanışlığa böyük İslam şairi, dahi Məhəmməd Füzulinin əsərləri ilə başlamışdı? O necə Allahsız idi ki, “Molla Nəsrəddin” jurnalının adının “Allahsız” adı ilə əvəzlənməsinə qəti şəkildə etiraz edib, “Allah olmayan yerdə mən yoxam”, – deməşdi? O necə Allahsız idi ki, yaşadığı ev dəfələrlə axtarışlara məruz qalmışdı? Nə axtarırdılar, “Allahsızın” evində?

“Molla Nəsrəddin” bu və digər səbəblərdən də yeni dövrün sərt tənqid, qınaq və təqiblərinə məruz qaldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında əvəzsiz xidmətləri olan, sovet dövrü kimi ağır rejimdə təzyiqlər altında işini davam etdirib sözünü deyə bilən, milli şüuru formalaşdıran jurnal 1931-ci ildə öz fəaliyyətini dayandırdı. 1932-ci ildə isə böyük mütəfəkkir-yazıçı Cəlil Məmmədquluzadə dünyasını dəyişdi. Elə Mirzə Cəlilin jurnalın nəşrinin dayandırılmasından cəmi bir il sonra ölümünə səbəb ona qarşı haqsızlıqlar, səhv başa düşülməsi oldu. O, bu haqsızlığa dözə bilmirdi. Hələ neçə-neçə nəşr olunmamış gözəl əsərləri də var idi ki, hamısını yandırdı. Kaş ki əsərlərini yandırarkən onun üzündəki “Od əllərimi, qəlbimi, yoxsa əsərlərimi yandırır?” ifadəsini görə bilərdiniz

...Bəli, tək Mirzə Cəlil deyil, Nəsimilər, Füzulilər, Nizamilər, Vaqiflər, Sabirlər – yüzlərlə şair və yazarlarımızın əksəriyyəti dövründə düzgün başa düşülməyib. Çünki Azərbaycan iştahasında olanlar xalqı, milləti əsrlərlə doğru yoldan döndərməyə çalışıb. Şükürlər olsun ki, əsrlərin mücadilə və mübarizəsi öz bəhrəsini verib, Azərbaycan müstəqil respublika olub. Dünyada tanınıb, inkişaf etmiş ölkələr sırasında yer alıb. Qızıl torpağın içərisində də öz parlaqlığını saxladığı kimi, Mirzə Cəlil kimiləri də xalq milli yaddaşının dəyər genofondunda saxlaya bilib. Onların hər biri qiymətini alıb, xalqın mənəvi irsinə çevriliblər. Budur, Cəlil Məmmədquluzadə haqqında Ümummilli Liderimiz Heydər Əliyevin dəyərli fikirləri: “Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz “Molla Nəsrəddin” jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir”.

2019-cu ildə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında ölkə Prezidentinin Sərəncamı, böyük ədibin ayrı-ayrı illərdə keçirilən yubileyləri, Bakıda və doğulduğu doğma Naxçıvanda ev-muzeylərinin yaradılması, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeylərinin açılması, heykəlinin ucaldılması, teatr, muzey, şəhər, qəsəbə, kənd və küçələrə adının verilməsi, əsərlərinin səhnələşdirilməsi, külliyatının dəfələrlə, hətta latın qrafikası ilə nəşri, kitabxanalara hədiyyə edilməsi, onun ölməz irsinə sonsuz sevginin, sayğının göstəriciləridir.

Ey Şərqin müdrik ağsaqqallı Molla Nəsrəddin! Naxçıvanda illərdir ki, mirzəcəlilşünaslıq məktəbi fəaliyyət göstərir. Bu məktəbin banisi akademik İsa Həbibbəyli yazır: “Böyük Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr edilən məşhur “Molla Nəsrəddin” jurnalı Azərbaycan tənqidi realizm ədəbiyyatının ideya-sənət cəbbəxanasıdır. Mübariz ideyalarına və qətiyyətli mövqeyinə görə “Molla Nəsrəddin” jurnalı Azərbaycan xalqının istiqlal kitabına çevrilmişdir”. Kaş ki gəlib sizin qələmlə becərdiyiniz, bizlərin isə qanla cücərtdiyimiz istiqlalımızı görə bilərdiniz. Kaş ki yaralarınıza məlhəm olacaq ana dili haqqında qanunlarımızla tanış ola, ana dilinə ucaldılan abidələrimizi görə bilərdiniz. Həmfikirlərinizi, nəşr olunan çoxsaylı qəzet və jurnalları, onlara verilən söz, mətbuat azadlığını görə bilərdiniz. Şəhər, qəsəbə, kəndlərimizdə uşaqların oxuduqları məktəbləri, respublikamızdakı ali məktəblərdə, xarici ölkələrdə təhsil alan gənclərimizi, gəncliyimizin intellektual səviyyəsini görə bilərdiniz. Kaş ki ölkəmizdəki dini tolerantlığı, sizin yaralı yeriniz olan Aşura günlərində qanvermə aksiyalarının xalqın neçə-neçə övladına həyat verdiyini görərdiniz. Kaş ki görə bilərdiniz: bir əsr öncəkindən çox fərqli bir əsr sonranı

Müsahibə üçün ruhun şad olsun, Molla Nəsrəddin!

***Mətanət Məmmədova***

# Suriyanı gələcəkdə nələr gözləyir?

***Suriyada baş verənlər, ümumiyyətlə, həmin ölkədə cərəyan edən hadisələr və olaylar qətiyyən diqqətdən yayınmır. Proseslərin qlobal miqyasda izlənilməsi və maraq doğurması onların gündəmdə olması ilə öz təsdiqini tapır. Suriya ilə bağlı hadisələrin məhz dünyanın nüfuzlu media qurumları tərəfindən mütəmadi şəkildə yayımlanması, şərh edilməsi də bu nöqteyi-nəzərdən səbəbsiz deyil. Səbəb odur ki, həmin ölkənin gələcəyi, bundan sonra Suriyada nələrin olacağı insanları düşündürür.***

## Suriyanın demokratik gələcəyinin olub-olmadığı ilə bağlı hələ də proqnoz verməkdə ehtiyatlı davranılır, çünki kifayət qədər "səbəblər" mövcuddur

Bildiyimiz kimi, Əsəd rejiminin devrilməsindən sonra Suriyanın prezidenti müvəqqəti də olsa, Əhməd Şara oldu. Onu da bilirik ki, yeni prezident Əhmədin başçılıq etdiyi yeni hakimiyyət geniş "dəstəyə" malikdir. Bu "dəstəyi" müxtəlif istiqamətlərdə müşahidə etmək mümkündür və ən azından onun əl-ayağına hələlik "dolaşan" yoxdursa, deməli, "hansısa müstəvidə" dəstəklənir. Bununla belə, bir çox politoloqlar, ekspertlər, xüsusən də "müşahidəçilər" həmin ölkənin hansısa səviyyədə demokratik gələcəyinin olub-olmadığını hələ də "qiymətləndirməkdə", hansısa proqnozlar verməkdə ehtiyatlı davranırlar. Çünki onların belə ehtiyatlı davranmaları üçün kifayət qədər "səbəblər" mövcuddur.

Bir çoxları elə hesab edirlər ki, Şaranın müvəqqəti prezident kimi qəbul olunması özü belə hələ də olacaqlara şübhə ilə yanaşmağa əsas verir. Digərlərinin fikrincə, Suriyanın müvəqqəti hökuməti hələ də gələcək haqqında düşünməyə belə hazır deyil. Resursların belə kifayət qədər olmadığı qənaətində olanlar da az deyillər. Xüsusən də ölkənin həm siyasi, həm də iqtisadi baxımdan hələ çox çətin durumda olduğu əsas gətirilir. Əhməd Şara nə qədər söz versə də, nə qədər vədlər versə də, öz çıxışlarında Suriya ilə bağlı nikbin proqnozlar verməyə cəhd etsə də, həmin ölkənin gələcəyi ilə bağlı vədlərə, həmin o nikbin proqnozlara skeptik yanaşanlar çoxluq təşkil edirlər. Görünür, onların belə yanaşmaları üçün əsasları var və "qəti bir fikir" bildirməkdə çətinlik çəkirlər.

## Hadisələrin necə cərəyan edəcəyi maraqların toqquşması fonunda bəlli ola bilər, amma "dinc şərait" yaranacağı ümidindəyik

Xatıradaq ki, Suriyanın yeni müvəqqəti prezidenti elan edildikdən bir gün sonra, İslamçı "Həyat Təhrir əl-Şam" qruplaşmasının keçmiş lideri olan həmin o müvəqqəti prezident Əhməd Şara xalqa bir prezident olaraq, ilk müraciətini etdi. İndi həmin müraciətin özü də bir çoxları çox həssaslıqla incələnməkdədir. "Yaxın günlərdə biz gələcək siyasi proqramla bağlı müxtəlif fikirlərin dinlənilməsi üçün müzakirələr platforması kimi nəzərdə tutulan Milli Dialoq Konfransının hazırlanması ilə məşğul olacaq komitənin yaradılmasını elan edəcəyik", deyə o, 30 yanvar tarixində televiziyada çıxışı zamanı söz verib. Bəli, hələki söz verib və bu, hələlik ancaq bir söz kimi qəbul olunur. Onun sözlərinə görə, bu konfransın nəticələri ölkənin yeni "Konstitusiya Bəyannaməsi" üçün platforma rolunu oynayacaq və Suriyanın gələcək siyasi inkişafı üçün "yol xəritəsi"nin hazırlanmasına kömək edəcək. Maraqlı olan odur ki, görəsən, həmin konfransın nəticələri necə olacaq? Axı müvəqqəti prezident açıq şəkildə bildirir ki, həmin "platforma" rolunu oynayacaq da, hazırlanmalı olan "xəritə" də məhz konfransın nəticələrindən asılıdır. Belə çıxır ki, Şara özü də həmin nəticələrin hələ nə olacağı ilə bağlı sual qarşısındadır. Əks halda, konfranın nəticələrindən yox, konfransın özündən asılıdır, deyə bildirərdi. Bax elə bu məqamlar özü də Suriyanın gələcəyi ilə əlaqədar hansısa proqnozlar vermək üçün tələsməməyə sövq edir.

Ümid etmək istərdik ki, konfransın nəticələri hadisələrin müsbət istiqamətdə cərəyan edəcəyinə zəmin yaradacaq. Ümumiyyətlə, Suriyanı bundan sonra da olsa "dinc şəraitdə" olacaq bir ölkə kimi görmək ümidindəyik. Doğrudur, qlobal aktorların rolunu "dəyərləndirməmək" mümkün deyil və hansısa təsirləri nəzərə almamaq da olmaz və bilirik ki, ancaq maraqların toqquşması fonunda hadisələrin hansı istiqamətdə dəyişəcəyi bəlli ola bilər. Hələlik isə, ortada olan sadəcə, görüntüdür və aysberqin görünməyən üçdə iki hissəsi bundan sonra görünə bilər və məhz həmin hissə göründüyü zaman daha dəqiq proqnoz vermək mümkündür. Belə çıxır ki, həmin ölkənin gələcəyi ilə bağlı proqnozlar vermək üçün "tələsməyənlər" də məh bu tərəddüd səbəbindən hələ "qəti fikir" söyləyə bilmirlər. Amma hər halda, üfüqdə hansısa görüntülərin olduğu qənaəti də var...

Yeni prezident tərəfindən deyilənləri, müvəqqəti hökümətin səylərini ən yaxşı halda, "xoş niyyət" olaraq, qəbul etmək olar

"Suriyanın əsas prioriteti hökumət boşluğunu qanuni qaydada və qanuna uyğun şəkildə, leqal formada doldurmaqdır", deyən yeni prezident, həmçinin Suriya parlamentinin buraxıldığını və 2012-ci ildə, yəni, keçmiş prezident, diktator Bəşər Əsəd dövründə qəbul edilən konstitusiyanın ləğv olunduğunu bildirib. Bundan əlavə, Əhməd Şara ilk növbədə Suriya ordusunun, eləcə də Əsədin devrilməsində iştirak edən silahlı qrupların da "buraxıldığını" açıqlayıb. Yeni prezident həmçinin qeyd edib ki, ölkənin şimal-şərqində ABŞ-ın dəstəklədiyi Kürd Suriya Demokratik Qüvvələri (KSDQ) istisna olmaqla, gələcəkdə Suriyanın bütün silahlı qüvvələri vahid milli ordu şəklində təşkil olunacaq. Məsələ burasındadır ki, sadalananların heç biri indiki mərhələdə həyata keçirilə bilməz. Müvəqqəti prezidentin qanunvericilik şurası yaratmaq hüququ və mandatı yoxdur. Suriyanın "keçid hökumətinin" planları, onun milli və beynəlxalq aktorlar tərəfindən təsdiqlənən qərarları indiki mərhələdə qətiyyən "legitim" görünmür. Deyilənləri ən yaxşı halda, "xoş niyyət" olaraq, qəbul etmək olar.

Milli Dialoq Konfransının çağırılması təklifi ilə bağlı müəyyən "gözləntiləri" olanlar var, lakin orada kimin iştirak edəcəyi, üzvlərin necə seçiləcəyi, seçkilərin olub-olmayacağı ilə bağlı əsas suallar hələ də cavabsız qalır. Müvəqqəti hesab olunan yeni prezidentin dediklərindən də hələ dəqiq bir şey ortaya çıxmır və cavabsız qalan həmin suallar həqiqətən də düşündürücüdür.

Söhbət hansısa hüquqların qorunmasından getdiyi zaman, əlbəttə ki, Suriyanın müxtəlifliyini əks etdirən inklüziv keçid hökumətinə, onun vədlərinə ümid etmək qalır. Amma məsələ burasındadır ki, Suriyanın müvəqqəti hökuməti Suriya cəmiyyətinin mürəkkəbliyini və müxtəlifliyini də anlayır və öz fikirlərini bütün Suriya xalqına tətbiq edə bilməyəcəyinin də fərqindədir. Bununla belə, qeyd etdiyimiz kimi, hələ ki, ortada ən azından, "xoş niyyət" də olsa var.

## Müvəqqəti hökumətin elan edilməsi ölkəni maliyyə cəhətdən sabitləşdirmək üçün beynəlxalq səyləri sürətləndirib

Suriyada yeni müvəqqəti hökumətin elan edilməsi ölkəni maliyyə cəhətdən sabitləşdirmək üçün beynəlxalq səyləri sürətləndirib. Keçən həftə Avropa İttifaqı xarici işlər nazirləri Aİ və ABŞ-ın 2011-ci ildə Suriyaya qarşı tətbiq etdiyi bəzi genişmiqyaslı sanksiyaları ləğv edib. Bu, indiyə qədər faktiki olaraq, "qlobal iqtisadiyyatdan uzaq" olan ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Ən azından sanksiya sıxıntılarından bir ölkənin yaxa qurtarması nikbin proqnozlar üçün əsas verir.



Nəzərə almaq lazımdır ki, bundan da başqa, ABŞ, Qətər, Səudiyyə Ərəbistanı və Ərəb ölkələri də daxil olmaqla, 22 ölkədən ibarət qrup Suriyanın yeni hakimiyyət orqanlarını dəstəklədiklərini bəyan ediblər. Bu arada onu da diqqətə çatdırmaq və nəzərdən qaçırmamaq yerinə düşərdi ki, məhz Əhməd Şara hələ də Amerika Birləşmiş Ştatlarının axtarışda olan terrorçular siyahısındadır, hansı ki, onunla bağlı 10 milyon dollar mükafat da təyin edilib. Onun təmsil olunduğu təşkilat isə hələ də BMT və ABŞ tərəfindən terror təşkilatı hesab olunur, çünki qrupun əvvəllər "İslam Dövləti" və Əl-Qaidə ilə "əlaqəsi" olub. Elə bu məqamın özü də bir qədər düşündürücüdür və ortaya həqiqətən də ciddi suallar çıxır. Xüsusən də belə bir sual yaranır ki, axtarışda olan terrorçular siyahısında "yer alan" Əhməd Şara və onun rəhbərliyi altında olan müvəqqəti hökumət həqiqətənmi dəstəklənir, yoxsa, sadəcə bir "görüntü" yaradılıb? Hər halda, həmin görüntünün "iç üzünü" zaman göstərəcək...

## Ağır iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün səylər göstərilsə də, müvəqqəti hökumətin üzərinə düşən bir qədər ağır yükdür

Bəli, Suriyanın özündə də ağır iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün səylər göstərilir. Lakin Əsəd klanının hakimiyyəti altında məhz 50 il ərzində Suriyanın dövlət iqtisadiyyatının qohumbazlıq və korrupsiya üzərində qurulması bir reallıqdır və indi bu reallığın fonunda müvəqqəti hökümətin üzərinə düşən də bir qədər ağır yük olaraq görünür. Suriyanın yeni müvəqqəti maliyyə naziri Məhəmməd Abazid keçən həftə "Reuters" agentliyinə bununla bağlı fikirlərini açıq şəkildə deyib. "Biz korrupsiya gözləyirdik, lakin bu miqyasda, bu səviyyədə yox", deyən maliyyə naziri Əsəd dövründə vəziyyətin çox "acınacaqlı" olduğunu bildirib. Onun sözlərinə görə, dövlətdən maaş alan 1,3 milyon insanın yalnız 900 mini faktiki olaraq işə gedir. Yəni, qalanları heç işə də getmir. Belə çıxır ki, müvafiq olaraq, yeni səlahiyyətlilərin növbəti addımı dövlət sektorunda çalışanların üçdə birinin işdən çıxarılması olacaq. Abazid, həmçinin zərərlə işləyən 100-dən çox dövlət sənaye müəssisəsinin olduğunu da gizlətməyib və bununla bağlı da planlardan danışıb. "Biz həmçinin vergi sistemini sadələşdirməyə və investorları Suriyaya qayıtmağa həvəsləndirmək üçün maneələri aradan qaldırmağa çalışırıq", deyən maliyyə naziri əslində, "özəlləşdirmə" planlarını da açıqlayıb.

## Suriyada qeyri-sabitlik hələ də qalmaqdadır və nə qədər davam edəcəyi də bəlli deyil

İqtisadi canlanma kimi təqdim edilən gələcək gözləntilər barədə proqnozlar verilməsinə baxmayaraq, Suriyanın müvəqqəti prezidenti Əhməd Şara özü hamıdan yaxşı bilir ki, ölkənin yenidən qurulması "asan məsələ" olmayacaq. "Qaliblərin missiyası ağırdır və onların üzərinə düşən məsuliyyət çox böyükdür", deyərək, ilk çıxışında yeni prezident "yükün" ağır olduğunu elə özü də etiraf edib. Bu məqamda onu da xatırlatmaq yerinə düşərdi ki, BMT-nin Humanitar Məsələlər üzrə Koordinasiya Ofisinin məlumatına görə, Suriyada humanitar vəziyyət getdikcə daha da pisləşir. Həmin məlumata istinad etdikdə bəlli olur ki, ötən il 16,7 milyon insanın humanitar yardıma ehtiyacı olub. Bu isə o deməkdir ki, böhranın başladığı 2011-ci ildən bəri bu göstərici "ən yüksək rəqəm" olaraq qeydə alınıb. Diqqətə çatdıraq ki, ötən həftə ABŞ-ın dəstəklədiyi Kürd Suriya Demokratik Qüvvələri ilə Türkiyənin dəstəklədiyi Suriya Milli Ordusu arasında qarşıdurmaların davam etməsi fonunda Suriyanın şimal-şərqində daha 25 min insan evlərini tərk etmək məcburiyyətində qalıb. Deməli, həmin ölkədə hələ də qeyri-stabillik hökm sürür.

İndiki məqamda, qeyri-sabitliyin qaldığı bir zaman kəsiyində nə qədər vədlər verilsə də, buna inananların təbii ki, azlıq təşkil etdiyi tamamilə məntiqidir. Doğrudur, prosesləri, hadisələri heç də Əsəd dövründəkilərlə müqaisə etmək olmaz. Belə bir müqaisə ədalətsizlik olar. Ən azından müsbət istiqamətdə dinamik dəyişikliklər göz önündədir və bunları təkzib etmək qətiyyən mümkün deyil. Üstəlik, BMT-nin Suriya üzrə xüsusi nümayəndəsi Geir Pedersonun sözlərinə görə, Suriyanın yeni administrasiyası da BMT missiyasının məqsədlərini dəyişmir. Deməli, fərqli bir vəziyyət və yanaşma var. Lakin hələ də qeyri-sabitlik olduğu halda, bir göz qırpımında hər şeyin düzələcəyi fikri də inandırıcı belə ola bilməz. Hər halda, bunun əksini iddia edənlər ancaq "sehrli çubuğun" gücünə və qüdrətinə istinad edə bilərlər.

***İnam Hacıyev***

# Azərbaycana Avropa Şurası lazımdırmı?

*Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mübariz Qurbanlının SİA-ya müsahibəsini təqdim edirik:*



Mübariz Qurbanlı

**- Azərbaycana Avropa Şurası lazımdırmı?**

- Azərbaycanın Avropa Şurasına daxil olmasının tarixinə nəzər yetirək. Bu dövr ərzində Avropa Şurası Azərbaycan əlaqələri məsələlərinə toxunaq. Biz bu tarixə ekskursiya edəndə Avropa Şurasının bütövlükdə Azərbaycana qarşı qərəzli olduğu məqamları görəcəyik. Bundan sonra isə "Proses necə gedir, Hazırda hansı səviyyədədir, Azərbaycan Avropa Şurası əlaqələri hansı istiqamətdə gedə bilər?" bu məsələləri də müzakirə edə bilərik. Birincisi, Avropa Şurası məşvərətçi bir qurumdur. İkinci dünya müharibəsindən sonra Avropa ölkələrinin arasında əlaqələr və Avropa məkanında bu və digər məsələləri müzakirə etmək üçün 1949-cu ildə yaradılmış bu təşkilat tədricən genişlənib. Bu təşkilatın genişlənməsi nəticəsində sonra Sovetlər İttifaqının dağılmasından keçən dövr ərzində Sovetlər İttifaqının tərkibində olan, müstəqillik qazanan ölkələr də Avropa Şurasına daxil oldu. Azərbaycan 1996-cı ildən faktiki olaraq danışıqlar prosesinə daxil olub. Təbii ki, əvvəl müraciət edilmişdi, bu müraciətdən sonra Azərbaycan prosedur qaydalarına uyğun olaraq danışıqlar aparıb. Azərbaycan prosesin gedişində Avropa Şurasının tərkibində aparılan danışıqlarda nəhayət orada qoyulan bütün şərtləri yerinə yetirdikdən sonra 2001-ci il yanvar ayının 25-də rəsmi şəkildə Avropa Şurasının üzvü qəbul edilib. 1996-cı ildən gedən proses zamanı Avropa Şurasına qəbulla bağlı Azərbaycana nümayəndə heyəti gəlirdi, danışıqlar gedirdi. Bu danışıqlar zamanı da Avropa Şurasının rəhbərliyində olan və bu ayrı-ayrı ölkələrin qəbulu ilə bağlı məsələləri müzakirə edənlər gələrkən bəzən hiss olunurdu ki, bunlar çox məsələləri həddindən artıq qabardırlar. Azərbaycan gənc ölkədir, təcavüzə məruz qalıb, ərazisinin 20 faizi işğal altında, milyon qaçqını var idi. Belə bir şəraitdə Azərbaycana qarşı bəzən elə iddialar irəli sürülürdü ki, bu iddialar əsaslı, hüquqi deyildi. Bu dövrdə də hiss olunurdu ki, qərəzlilik var. Ümumiyyətlə, Avropa strukturlarında islamofob düşüncə tərzi həmişə özünü göstərib. Ona görə Ulu Öndər Heydər Əliyev bu danışıqlar zamanı da Azərbaycanın qətiyyətli mövqeyini hər zaman nümayiş etdirib. Hətta danışıqların birində Ulu Öndər Heydər Əliyev Avropa Şurası nümayəndə heyətinin danışıqlar zamanı bir növ üstdən getmə, təzyiq formasında çıxışlar edərkən Ulu Öndər bildirdi ki, siz bizə çox da minnət qoymayın, biz Avropa Şurası olmadan da yaşaya bilən ölkəyik: "Lakin biz istəyirik, Avropa Şurasının da üzvü olaq, inteqrasiya edək". Hətta qətiyyətli mövqeyini ortaya qoydu. Onlar geri çəkildilər. O iddialar ki var idi, hüquqi cəhətdən də düz deyildi, ondan sonra geri çəkildilər. Ona görə də, cənab Prezident İlham Əliyevin Azərbaycan nümayəndə heyətinin rəhbəri olaraq oradakı fəaliyyəti dövründə də biz Avropa Şurası ilə səmimi olduq, Avropa Şurası Parlament Assambleyasında bütün prosedur qaydalarına əməl etdik. Azərbaycan nümayəndə heyəti müzakirə olunan məsələlərdə hər zaman obyektiv oldular. Ancaq biz orada hər zaman Azərbaycana qarşı ikili standartlar, islamofobiya gördük.

**- Uzun müddət Azərbaycana qarşı fərqli baxışların olması nədən qaynaqlanıb?**

- Avropa Şurasının üzvü olan ölkələr müəyyən üzvlük haqları da ödəyirlər. İkincisi, Azərbaycan orada olduğu dövrdə Azərbaycanın əsas problemi Ermənistanın Azərbaycana qarşı təcavüzü idi, torpaqlarımızın azad edilməsi məsələsi idi. Bu məsələlərin müzakirəsində Avropa Şurasının bir sıra ölkələrinin Azərbaycanın haqlı mövqeyini müdafiə etmədiyini görmüşdük. Eyni zamanda Avropa Şurasında Azərbaycana təzyiq etmək üçün uydurma insan haqları, demokratiya, yalançı hesabatlarla bağlı məlumatlar gedirdi. Əlbəttə, bu da istər-istəməz Azərbaycan nümayəndə heyəti tərəfindən həmişə tənqid olunub. Bu münasibətlərimizə xələl gətirdi. Ümumiyyətlə, Amerika, Qərb başqa ölkələrlə münasibət qurarkən öz hakimiyyət modellərinin bu ölkələrdə də olmasını təlqin edirlər. Axı sivilizasiyalararası fərqlər var, xalqların, millətlərin özünəməxsusluğu var. Xalqların hər biri bir tarixi yol keçib. Azərbaycan da tarixi yol keçib. Biz onların keçdiyi yola hörmətlə yanaşdığımız kimi onların milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə, dövlət quruluşu ilə bağlı seçdikləri yola da hörmətlə yanaşmalıyıq. Bizim seçdiyimiz yol respublika yoludur. Amma Avropada 10 ölkədə hələ də monarxiya qalır. 10 dövlətdə irsən hakimiyyəti ötürürlər. Arxaik şey mövcuddursa, niyə bu arxaikliyi saxlamısınız?

**- Niyə "Human Rights Watch" təşkilatı iş qrafikini Azərbaycana qarşı nifrət üzərində qurmaqla nəyə nail olmaq istəyir?**

- Avropa Şurası başqa bir strukturdur. Azərbaycan da onun üzvüdür. Buradakı hadisələr dövlətlərarası münasibətlərlə bağlı məsələdir. "Human Rights Watch" kimi təşkilatlar dünya miqyasında təşkilatlar yaradıblar. İddia edirlər ki, dünyada insan hüquq və azadlıqları, demokratiya və sair kimi məsələlərdə hegemon rol oynayırlar. Əslində belə deyil. Bu cür təşkilatları başqa ölkələrdə də yaradıblar. Məsələn, Çində də bu cür adlarda belə təşkilatlar mövcuddur. Başqa ölkələrdə də mövcuddur. Yəni Qərb ölkələrinin dünyada insan hüquq və azadlıqlarının özlərinin monopoliyasına almaq cəhdləri doğru deyil. İnsan hüquq və azadlıqları universal xarakter daşıyır. İnsan hüquq və azadlıqları ilə bağlı 1948-ci il Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi pakt vardır. Bu paktda irəli sürülən müddəalar hamı üçündür. Bu cür təşkilatlar yarandığı vaxtdan ayrı-ayrı ölkələrdə məsələləri qabartmağa çalışır. Həmin məsələləri təzyiq vasitəsi kimi istifadə edir. Bu təşkilatlar yerləşdiyi ölkələrin siyasətinin reallaşması üçün alət rolunu oynayır. Azərbaycan hər hansı təşkilatın, qurumun üzvü deyilsə, onun qarşısında heç bir məsuliyyəti də yoxdur. Təbii ki, bu cür təşkilatların üzvlük məsələsindən söhbət getmir. Qərb araşdırmaları göstərir ki, burada güclü surətdə maliyyə pozuntuları var. Hansısa qruplaşmalar aldıqları vəsaitləri müxtəlif formada mənimsəyirlər. Bu təşkilatlardan birində işçilərə qarşı irqi ayrıseçkiliklə bağlı faktlar var. Ona görə də, bu təşkilatların yaydıqları məlumatlar yalnız Azərbaycana qarşı yox, başqa ölkələrə, xüsusilə Türkiyəyə, müsəlman ölkələrinə qarşıdır. Hansı ölkələr ki, Qərb dövlətlərinin hegemonluğunun əleyhinədir, öz müstəqil siyasətini həyata keçirir, bu ölkələrə qarşı bu təşkilatlardan alət kimi istifadə olunur.

**- Davamlı olaraq erməni faktorundan istifadəni hansı amillərlə izah etmək olar?**

- Burada erməni amili, ermənipərəstlik, ermənilərin aldıqları vəsait öz rolunu göstərir. Eyni zamanda bu təşkilatların mənsub olduğu ölkənin Azərbaycanla, bu və ya digər məsələlərlə bağlı həll etmək istədiyi hansısa məqamlar olur. Təbii ki, Azərbaycan öz milli maraqlarını heç kimə güzəştə getmir. Bizim təşkilata üzv olmağımızın önəmi budur ki, biz də beynəlxalq təşkilatlara üzv olmalıyıq, oluruq, sözümüzü də deməliyik. Amma o təşkilatlar bizə qərəzlilik nümayiş etdirirsə, həm təşkilata üzv olub, həm üzvlük haqqı ödəyəcəyik, həm də əleyhimizə istifadə olunacaqsa, biz o təşkilatda oturmayacağıq. O təşkilata qayıtmaqla əlaqədar körpülərimizi yandırmamışıq. Əgər orada qərəzlilik dayanacaqsa, bərabərhüquqlu münasibətləri təmin edəcəklərsə, Azərbaycan o təşkilatda yenə də fəaliyyətini davam etdirməyə hazır olduğunu bildirib. Erməni lobbisi ilə bağlı təşkilatlar faktlarla sübut ediblər ki, vəsait alırlar. Amma digər səbəblər də var. Digər səbəblər o ölkələrin Azərbaycana bu yolla təzyiq göstərmək cəhdidir. Azərbaycan Prezidenti dəfələrlə demişdir ki, biz təzyiq, təhdidlə hər hansı siyasətimizdən geri çəkilməyəcəyik.

**- Azərbaycan üzərinə edilən davamlı hücumlarla nəyə nail olmaq istəyirlər?**

- Dünyada Azərbaycanın dostlarının sayı onun əleyhinə olanlardan qat-qat çoxdur. Bütün beynəlxalq təşkilatlarda Azərbaycanın böyük dayağı var. Azərbaycanın beynəlxalq təşkilatlarda dost sayının çox olmasınan bir neçə göstəricisini qeyd etmək istəyirəm. Birincisi, Azərbaycan postsovet məkanında ilk dəfə olaraq Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının iki illik keçici sədrliyini qazanıb. Bunu da səsvermə ilə qazanıb. Birləşmiş Millətlər Təşkilatı baş məclisində həll olunub. Azərbaycan orada 155 ölkənin dəstəyini qazanmışdı. COP-un Azərbaycanda keçirilməsi müzakirə edilərkən demək olar ki, dünyanın bütün ölkələri bu tədbirin Azərbaycanda keçirilməsi üçün səs verib. Avropa İttifaqının ən azı 10 ölkəsinə enerji ixrac edirik. Bu ölkələrin siyasi hakimiyyətində dəyişiklik baş verir. Əlbəttə, Azərbaycan müstəqil siyasət yeridir. İstəyirlər ki, Azərbaycan da hansısa qrupların təsir dairəsində, onların siyasətinə uyğun siyasət yürütsün. Azərbaycan beynəlxalq miqyasda bütün səsvermələrdə ancaq müstəqil qərar verir.

***S. Ağazadə***

# "Bu gün Qarabağ və Şərqi Zəngəzur torpaqları bir gülüstana çevrilməkdədir"




***""Böyük Qayıdış" proqramının uğurla hayata keçirilməsi ilk növbədə Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqət mərkəzindədir". Bu sözləri SİA-ya açıqlamasında deputat Tahir Rzayev deyib. O bildirib ki, bu proqramın müvəffəqiyyətlə həyata keçirilməsi, görülən işlər hər bir vətəndaşda qürur doğurur: "Çünki az bir müddət ərzındə işğaldan azad olunmuş ərazilərdə çox möhtəşəm tikinti, təmir, bərpa-quruculuq işləri həyata keçirilib, magistral yollar salınıb, tunellər inşa edilib, həmin ərazilərdə məktəblər, bağçalar, yaşayış binaları istifadəyə verilmişdir. Bu möhtəşəm işlərin görülməsi, əlbəttə ki, ölkənin iqtisadi vəziyyətindən asılıdır. Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Əldə olunmuş nəticələr sayəsində son illərdə həmin ərazilərə iyirmi üç milyard manat vəsaitin ayrılması işlərin möhtəşəmliyindən və uğurlarından xəbər verir.***

Bu günə kimi həmin ərazilərə artıq 30 mindən çox dinc sakin qayıdıb və onlar öz ata-baba yurdlarında normal firavan həyata qədəm qoyurlar. Bu gün Qarabağ və Şərqi Zəngəzur torpaqları bir gülüstana çevrilməkdədir. Cənab Prezident iftixarla bildirir ki, mən artıq həmin ərazilərə yüz dəfədən çox səfərlər etmişəm: "Hər səfər məndə yeni qürur, yeni duyğular yaradıb". Bu bir reallıqdır. Çünki həmin möhtəşəm işlər ölkə rəhbərinin rəhbərliyi ilə həyata keçirilir. İşlərin gedişi daimi olaraq nəzarətdədir. Elə bir ay olmur ki, ölkə rəhbəri bir neçə dəfə işğaldan azad olunmuş ərazilərə səfər etməmiş olsun. Orada təməl qoyma mərasimlərində, açılışlarda yeni layihələrin həyata keçirilməsində iştirak edir.

İşğaldan azad olunmuş ərazilər böyük kənd təsərrüfatı potensialına malikdir. Ötən illərdə həmin ərazilərdə yüz min hektardan çox sahədə dənli, paxlalı bitkilər əkilmiş, heyvandarlığın inkişafı üçün yeni imkanlar yaradılmışdır. Təhlükəsizliyin təmin olunması qarşıda duran əsas vəzifə və statistik malumatlara görə artıq minalardan təmizlənmiş altı yüz min hektardan çox torpaq sahəsi yaxın vaxtlarda əkin dövriyyəsinə daxil ediləcək. Bu gün həmin ərazilərdə həyat coşur, insanlar köç etdikləri ərazilərdə yaşayırlar. Uşaqlar məktəblərə gedir, baxçalar açılıb, yollar səliqə-sahmana salınıb.Əlbəttə ki, bu, qürur vericidir və Azərbaycan xalqı 30 ildən çox bir müddətdə bu günləri həsrətlə gözləyib. Ölkə rəhbərinin siyasəti nəticəsində qardaş dövlətlər həmin ərazilərdə məktəblərin tikilməsində, mədəniyyət ocaqlarının salınmasında, digər infrastruktur layihələrin həyata keçirilməsində yaxından iştirak edirlər. Qazaxıstan, Özbəkistan, Qırğızıstan respublikaları, eləcə də qardaş Türkiyə Respublikası Qarabağda və Şərqi Zəngəzurda işlərin sürətlə həll olmasına böyük təkan verirlər. Ölkə xarici dövlətlərlə münasibətlərin yaxşılaşmasına böyük önəm verir. Əlbəttə, bu da Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsi. onun nüfuzunun yüksəldilməsi üçün zəmanətdir. Qarabağda, Şərqi Zəngəzurda gedən möhtəşəm işlər deməyə əsas verir ki, region dünyanın ən abad, ən görkəmli guşələrindən birinə çevriləcək".

***Söylü***

MÜNASİBƏT

***Getdikcə rəqəmsallaşan dünyada üz-üzə sosial əlaqələrimizi virtual platformalara köçürür və rəqəmsallığı tərk etməkdən çəkinirik. Bəziləri tənhalıq və depressiya kimi problemlərin səbəbi kimi texnologiyanı günahlandırarkən, bazi texnologiya şirkətləri bu anlayışı dəyişdirməyə çalışır. SİA mövzu ilə bağlı araşdırma aparıb.***



# Texnologiya bizi necə tənhalaşdırır?

ARAŞDIRMA

## Texnologiya bizi necə tənhalaşdırır?

ABŞ-ın Baş Cərrahı Dr Vivek Murthy Amerikaya təsir edən, psixi sağlamlığı pisləşdirən və fiziki sağlamlıq problemlərinə səbəb olan tənhalıq epidemiyasından bəhs edən 85 səhifəlik hesabat yayımlayıb. Vivek Murthy öz hesabatında yazıb ki, texnologiya insanları təcrid edir və itirmək qorxusu yaradır.



Yalnızlığa təsir edən digər amillər sosial siyasətlər, mədəni normalar, siyasi mühit və makroiqtisadiyyat kimi göstərilmişdir.

Hesabatda qeyd olunur ki, gündə iki saatdan çox sosial şəbəkələrdən istifadə edən insanların sosial şəbəkələrdən gündə 30 dəqiqədən az istifadə edənlərlə müqayisədə özünü tənha hiss etmək ehtimalı iki dəfə çoxdur. Murthy həmçinin təklif edir ki, onlayn təcavüzə məruz qalan insanlar tənhalıq, təcrid və münasibət problemləri yaşayırlar. Onlayn təcavüzə məruz qalan insanlarda özünəinamın aşağı olması, insanın özünə və başqalarına güvənməkdə çətinlik çəkdiyini göstərir. Sosial medianın psixi sağlamlığa təsiri son illərdə sıx araşdırma mövzusudur. Tədqiqatlar göstərir ki, gənclər arasında depressiya, narahatlıq və hətta intihar düşüncələri riski artıb.

Texnologiyanın bu təsirinə əlavə olaraq, insanları bir-birinə bağlamaq gücünə sahib olması da diqqətdən kənarda qala bilməz. Texnoloji yeniliklər məkandan asılı olmayaraq ünsiyyəti daha sürətli və asanlaşdırıb. Məhdud sosial təması olan insanlar üçün əlçatan qarşılıqlı əlaqə təmin etdi.

## Texnologiya yenilikləri ilə təklik probleminin həlli

Nəşr olunmuş məqalə ABŞ-dakı təklik epidemiyasında texnologiyanın rolunu və Groove, Rendever və Luka, Inc-in işini araşdırır. Bu, kimi şirkətlərin insanları bir araya gətirmək və təkliyi məğlub etmək üçün texnologiyadan necə istifadə etməyə çalışdığına baxır.

## Groove-un rəqəmsal əməkdaşlıq proqramı

Groove uzaq işçilər, işəgötürənlər və sahibkarlar üçün strukturlaşdırılmış görüş vaxtları təmin etməklə, birgə rəqəmsal iş proqramı hazırlamışdır. Özünü təcrid olunmuş hiss edən uzaq işçilər Groove-un yanaşmasına müsbət cavab verdilər, icma hissi və artan motivasiya ilə qayıtdılar.



Tətbiq istifadəçilərin işlərini təsvir edə, uğur və problemlərini bölüşə biləcəyi kiçik miqyaslı söhbət mühiti təqdim edir. O, həmçinin başqaları ilə işgüzar əlaqələr qurmaq üçün strukturlaşdırılmış bir saatlıq görüş vaxtı təqdim edir.

## Rendeverin yaşlılar üçün immersiv təcrübələri

Rendever yaşlılar üçün immersiv təcrübələrə diqqət yetirir. Milli Yaşlanma İnstitutu tərəfindən maliyyələşdirilən bu yaxınlarda aparılan pilot araşdırma, Rendeverdən istifadə edən yaşlılarda depressiya skorlarında statistik əhəmiyyətli azalma və sosial sağlamlıq ballarının artdığını, həmçinin onların baxıcıları üçün stressin azaldığını göstərdi.

Hesab edilir ki, bu təşəbbüslər texnologiyadan düzgün istifadə edildikdə mənalı qarşılıqlı əlaqəni asanlaşdıra bilər. Rəqəmsal əsrdə sosiallaşma formalarını dəyişdirərək tənhalıq probleminin həllinə ümid verir. Texnologiyanın bu təsirinə əlavə olaraq, insanları bir-birinə bağlamaq gücünə sahib olması da diqqətdən kənarda qala bilməz. Texnoloji yeniliklər məkandan asılı olmayaraq ünsiyyəti daha sürətli və asanlaşdırıb. Məhdud sosial məsafəsi olan insanlar üçün əlçatan qarşılıqlı əlaqə təmin etdi. Texnologiya sosial dəstək şəbəkələrini yaxın ətrafdan eyni proqramı və ya veb səhifəni ziyarət edən hər kəsə qədər genişləndirdi.

## Texnologiya səbəb olduğu problemləri həll edə bilərmi?

Dr. Vivek Murthy-nin hesabatına görə, texnologiya sosial əlaqələrimizi gücləndirmək üçün potensial təklif edir. Məsələn, o, dostlar və ailə ilə video zənglər etməklə və ya sosial media platformaları vasitəsilə qarşılıqlı əlaqədə olmaqla sosial əlaqələrimizi qorumağa kömək edir.

Axı texnologiyanın sosial qarşılıqlı əlaqələri gücləndirmək və əlaqə imkanlarını təmin etmək potensialı hamıya məlumdur. Mütəxəssislər tərəfindən səsləndirilən xəbərdarlıqlar həqiqi əlaqələri gücləndirmək üçün texnologiyadan sağlam şəkildə istifadə etməyin vacibliyini vurğulayır. Bu səbəbdən tənhalığı həll etmək üçün sadəcə olaraq daha çox texnologiyaya güvənmək ən təsirli yanaşma olmaya bilər. Həm bu gün, həm də gələcəkdə tənhalığa qapılmamaq üçün texnologiyadan istifadə üsullarına diqqət yetirmək lazımdır.

***Ayşən Vəli***

---

# “Nar”ın dəstəyi ilə Azərbaycanda jest dili tətbiqi hazırlanır

***Sosial layihələri ilə cəmiyyətdə xüsusi dəyər yaradan “Nar” jest dilinin inkişafına yönəlmiş təşəbbüslərinin davamı olaraq, bu ildən etibarən Azərbaycanda jest dili tətbiqinin ərsəyə gəlməsinə öz töhfəsini verir. “Nar”ın dəstək göstərdiyi bu layihə çərçivəsində mobil tətbiqin yaradılmasına ADA Universiteti və ADA Universiteti Fondunun təşkilatçılığı, bp və onun tərəfdaşlarının dəstəyi ilə ötən ilin sentyabr ayında start verilib.***

Bu təşəbbüs inklüzivliyi təşviq edərək eşitmə və nitq məhdudiyyəti olan şəxslərin cəmiyyətin digər üzvləri ilə ünsiyyətini asanlaşdırır və onların tamamilə ödənişsiz və heç bir müəllimə ehtiyac olmadan jest dilini öyrənməsinə imkan yaradır. Mobil tətbiq üçün məzmunun hazırlanması və metodikanın seçilməsi isə “Karlara Dəstək” İctimai Birliyi tərəfindən icra edilir.

Tezliklə istifadəyə verilməsi planlaşdırılan tətbiqdə istifadəçilər jest dilini öyrənmək üçün müxtəlif imkanlardan yararlana biləcəklər. Jest dili tətbiqi dərs bölməsi vasitəsilə mövzular üzrə dərslər seçməyi təmin edəcək. Eyni zamanda, lüğət funksiyası istifadəçilərə jest dilində sözləri asanlıqla tapmağa, əlifba ilə işləmə funksiyası isə hərfləri öyrənməyə imkan yaradacaq. Tətbiqdə istifadəçi profilinin yaradılması, sevimli sözlərin seçilməsi və tədris prosesində irəliləyişin izlənməsi kimi əlavə funksiyalar da mövcud olacaq. Bununla yanaşı, video sürətini artırma, kamera funksiyası vasitəsilə jestləri təkrarlama və dərslərin öyrənilməsi üzrə irəliləyişləri göstərən tərəqqi çubuğu kimi innovativ funksionallıqlar tətbiqin əsas üstünlükləri olacaq.




Qeyd edək ki, “Nar” ölkəmizdə ilk dəfə vahid jestdili.az saytını ərsəyə gətirərək inklüziv cəmiyyətin qurulmasına töhfə verib və bu istiqamətdə dəstəyini jest dili tətbiqinin hazırlanması ilə davam etdirir. Mobil operator eşitmə və nitq məhdudiyyəti olan şəxslərin bilik və bacarıqlarını inkişaf etdirmək üçün uzunmüddətli sosial layihələr həyata keçirir. Məhz bu məqsədlə “Nar” jestdili.az saytını yaradıb, bununla yanaşı, paytaxtda və regionlarda davamlı təşkil olunan “Təlim məktəbi”layihəsini gerçəkləşdirib. Eyni zamanda, jest dilində sözlərin izahını əks etdirən “Səssiz dünyaya körpü” kitabını nəşr edib və “Canlı kitab” təşəbbüsünü həyata keçirib. Jest dili tətbiqinin hazırlanmasına dəstək verməklə isə “Nar” texnologiyanın gücündən istifadə edərək daha inklüziv və bərabər imkanlara malik cəmiyyətin formalaşmasına töhfə verməyə davam edir.

“Nar” hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərir. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.







***Donald Trampın Ağ Evə qayıdışı Avropa Birliyində avroskeptiklər, sağçı və ifrat sağçı partiyalar tərəfindən böyük sevinclə qarşılanıb. ABŞ-ın 47-ci prezidentinin andiçmə mərasimində Trampla Avropa sağçıları arasındakı qarşılıqlı meyl tam şəkildə nümayiş etdirildi. Rəsmi Brüssel bu tədbirdə təmsil olunmasa da, ondan çox siyasətçi və Avropa Uğrunda Vətənpərvərlər (PfE), Avropa Mühafizəkarlar və İslahatçılar (ECR) və Suveren Millətlər Avropası (ESN) fraksiyalarından Avropa Parlamentinin üzvləri iştirak edirdi.***

# “Avropanı oğurlamaq” planı

## *Tramp bunu necə bacaracaq?*



Xüsusilə, mərasimdə İtaliya Qardaşları İtaliya (FdI), İspan Səsi (Vox), Macarıstan Vətəndaş Birliyi (Fidesz), Fransa Milli Birliyi (RN), Almaniya üçün Alman Alternativi (AFD), Polşa Hüquq və Ədalət (PiS) və bir çox başqa qurumların nümayəndələri iştirak ediblər. Belə görünür ki, ABŞ-ın yeni hökuməti Brüsselə Aİ rəhbərliyinin Cozef Bayden administrasiyası ilə olduğu kimi dostluq münasibətlərinin bundan sonra olmayacağına dair siqnal göndərir.

Bu baxımdan, Atlantik okeanının hər iki tərəfindəki liberal dairələrdə İtaliyanın baş naziri Giorgia Meloni lider ola biləcəyi Aİ-dəki Tramp və avroskeptiklərin millətçi transatlantik koalisiya, bir növ millətçi beynəlxalq koalisiya yaradacağından narahatlıqlar var. Belə cəhdlər artıq Trampın birinci dövründə onun müşaviri Stiven Bannon tərəfindən edilib. O, “Avropa ölkələrini Avropa Birliyinin “avtoritar” hökumətindən müstəqilliklərini bərpa etməyə” çağıraraq, Avropada ifrat sağçıları anti-Brüssel hərəkatında birləşdirməyə çalışıb. Sonra plan iflasa uğradı, çünki dərin tarixi və siyasi fərqlərə malik Avropa hüququ “müəyyən bir amerikalının” məsləhətinə əməl etmək istəmədi. Bu yaxınlarda maliyyə sui-istifadəsinə görə cəza çəkən Bannon, çətin ki, ikinci dəfə eyni sulara girsin. Yeni administrasiyanın sağçı populistləri birləşdirən yeri, Avropa sağına, xüsusən də Corciya Meloniyə meylini nəzərə alaraq, impulsiv milyarder ixtiraçı İlon Mask kimi başqaları ilə doldurula bilər.

Vaxtilə Meloni Bayden administrasiyası ilə yaxşı münasibətlər qurmağı bacarmışdı. Məhz amerikalı demokratlarla dostluq Meloniyə Brüsseldə siyasi marjinallaşmanın öhdəsindən gəlməyə kömək etdi. Bu, Aİ-dəki əsas siyasi qüvvələrin İtaliya Qardaşları partiyasının xoşagəlməz keçmişinə şübhəli münasibəti ilə bağlıdır. İtaliya baş nazirinin məntiqi sadə idi: “Bayden demokratdır və heç vaxt şübhəli liderə rəğbət bəsləməz”. Meloni partiyasına daha çox hörmət qazandırmaq üçün onu ideoloji cəhətdən Britaniya Mühafizəkarlarına və Amerika Respublikaçılarına yaxın yerləşdirdi. Respublikaçı Trampın Ağ Evə qayıtması ilə Meloni və onun partiyasının ən gözəl saatının yaxınlaşdığı görünür. Amma bu doğrudurmu?

Çoxları Meloni Trampın Mühafizəkarlar və İslahatlar fraksiyasına liderliyini və 2022-ci ildən bəri rəhbərlik etdiyi İtaliyada koalisiya hökumətinin davamlı sabitliyini nəzərə alaraq onun Avropadakı əsas tərəfdaşı kimi görür. Avropa Parlamentində sağda olan üç əsas fraksiyadan “Mühafizəkarlar və İslahatçılar” ən azı Aİ qaydaları ilə müəyyən edilmiş qırmızı xətləri keçənə qədər Avropa İttifaqının idarəetmə strukturlarında məqbul tərəfdaşlar kimi qəbul edilirlər. İfrat sağçı Avroskeptiklərdən fərqli olaraq, Aİ-də Mühafizəkarların və İslahatçıların mövqeyi, öz təriflərinə görə, anti-Avropa deyil, avrorealistdir. Güclü avroskeptisizm tərəfdarları olan vətənpərvərlər (PfE) və suverenistlər (ESN) əsas siyasi qüvvələrin “kordon sanitar”ı altındadırlar ki, bu da onlara Avropa Parlamentində əsas mövqeləri tutmağa imkan vermir.

Şübhəsiz ki, xarici siyasətdə ölkə rəhbərləri arasında şəxsi münasibətlər amili mühüm rol oynayır. Beləliklə, Ronald Reyqan və Marqaret Tetçerin dostluğu ölkələri arasında münasibətləri möhkəmləndirdi, Donald Tramp və Angela Merkelin açıq qarşılıqlı düşmənçiliyi onların əsas sahələrdə qarşılıqlı fəaliyyət imkanlarını məhdudlaşdırdı. Meloni indiyə qədər Trampla deyil, Maskla dostluq münasibətləri inkişaf etdirib. Onun prezidentin özü ilə gələcək qarşılıqlı əlaqələrinin necə olacağı və onun daha yüksək məqsədlər naminə müdafiəyə ÜDM-in 2%-ni xərcləməsi ilə bağlı ilkin tələbinə belə cavab verməyən İtaliya üçün istisna etməyə hazır olub-olmayacağı hələ də qeyri-müəyyən olaraq qalır.

Maskın yeni prezident administrasiyasında gələcəyini proqnozlaşdırmaq da çətindir. Trampın prezidentliyinin keçmiş təcrübəsi, xüsusən də milli təhlükəsizlik üzrə müşaviri Con Boltonun sərt şəkildə işdən çıxarılması onu göstərir ki, Ağ Ev rəhbəri peşəkar keyfiyyətlərindən asılı olmayaraq keçmiş həmkarları ilə qətiyyətlə yollarını ayırır. ABŞ-ın 47-ci prezidentinin əleyhdarları iddia edirlər ki, o, komandasında yalnız onun üçün oynamalı olan parlaq, müstəqil şəxsiyyətlərə dözmür və ABŞ siyasətini bütün istiqamətlərdə yalnız özü müəyyən edir. Trampın bu keyfiyyəti ilə bağlı “anti-Avropa beynəlxalq”ının yaradılmasına başqa mümkün maneədir.

İstənilən koalisiyanın yaradılmasının şərtlərindən biri onun iştirakçılarının, ilk növbədə proqramlaşdırma liderinin güzəştə getmək bacarığıdır. Bununla belə, Tramp üçün onun siyasi kredosu həmişə birinci yerdə olacaq - “Amerikanı yenidən möhtəşəm et” (MAGA) və “Öncə Amerika!” (Birinci Amerika!) Ola bilsin ki, bu şüarlar AB ölkələrindəki dar millətçilər (İtaliya Liqası partiyasının lideri Matteo Salvini kimi) arasında aşkar düşmənçiliyə səbəb olmayacaq ki, onlar ürəkdən Trampın millətlərarası strukturları rədd etməsini bölüşürlər və Trampın tələb etdiyi hər şeyi defolt olaraq qəbul edirlər. Meloniyə gəlincə, o, Avropa səviyyəsində siyasi liderdir. Avropanın siyasi üfüqündə göründüyü ilk vaxtdan onun məqsədi “xalqlar Avropası”nın çiçəklənməsi üçün ümumavropa millətçiliyinin formalaşması idi. Bu mənada Meloni müasir qollizm ideologiyasının ən bariz nümunəsidir. O, Avropa İttifaqını bu ideologiyaya uyğun olaraq yenidən formatlaşdırmaq, Brüsselin bir çox səlahiyyətlərini əlindən almaq və onları milli səviyyəyə keçirmək istəyir.

Onun məqsədi təkcə İtaliyanın Aİ-dəki statusunu gücləndirmək deyil, həm də Avropanın beynəlxalq siyasi profilini və nüfuzunu artırmaqdır. Meloni Trampı qələbəsi münasibətilə təbrik edərkən Avro-Atlantik tərəfdaşlığı deyil, strateji əlaqəni olan İtaliya-Amerika əlaqələrini vurğulasa da, MEGA şüarı (“Avropanı yenidən möhtəşəm et”) onun üçün MAGA-nın Tramp üçün əhəmiyyətindən az deyil. Meloninin Respublika administrasiyası ilə qeyd-şərtsiz birləşməsi onun Avropa İttifaqı daxilindəki mövqeyinə və nüfuzuna xələl gətirəcək.

Meloni Bayden administrasiyası ilə razılaşdırılan Ukraynaya dəstəyini Trampın xarici siyasəti ilə necə uzlaşdırmağa çalışacağı bəlli deyil. Çox güman ki, o, tezliklə özünü Baydenin onun üçün ideal tərəfdaş olduğuna inandırmalı olacaq. Amerika respublikaçıları ilə Avropa sağçıları arasında ideoloji münasibətlərin əhəmiyyətli dərəcədə üst-üstə düşməsinə baxmayaraq, sonuncuların Trampın qərarlarından ehtiyatlı olmaq üçün ciddi səbəbləri var. Bu, ilk növbədə, fransız sağçılarının lideri Marin Le Penə aiddir. Fransa 2023-cü ildə ABŞ-a AB mallarının dördüncü ən böyük ixracatçısı olub və Trampın “Birinci Amerika” ticarət siyasətindən ağır zərbə ala bilər. Bundan əlavə, Le Pen Trampın Aİ-yə qarşı ticarət müharibəsinin onun 2027-ci il prezidentlik kampaniyasına mümkün mənfi təsirindən narahat ola bilər.

Görünür, Macarıstanın baş naziri Viktor Orbanın Donald Trampın seçilməsini qeyd etməsi, Macarıstan liderinin Çin Prezidenti Si Cinpinlə güclü işgüzar əlaqələrini nəzərə alsaq, tezdir. Macarıstan ölkəyə Çin xarici sərmayəsini cəlb etməkdə uğur qazanıb və yaxın əlaqələr artıq Respublika administrasiyasının narahatlığına səbəb olur. Orban və Trampın maraqları qaz sektorunda da toqquşur. Birincisi ucuz rus qazı ilə maraqlanırsa, ikincisi Amerikanın mayeləşdirilmiş təbii qazının Avropaya tədarükü ilə bağlıdır.

Aİ daxilində sağçı siyasi qüvvələrin vahid cəbhəsinin formalaşdırılmasına da çoxlu maneələr var. Əvvəla, bu, onların pərakəndəliyi və obrazlı desək, növlərarası rəqabətdən həmişə daha şiddətli olan növdaxili mübarizəsidir. Beləliklə, indiki Avropa Parlamentində sağın üç siyasi fraksiyası bütün əsas məsələlərdə parçalanıb. Sirr deyil ki, Giorgia Meloni “Patriot” fraksiyasından olan Marin Le Pen və Matteo Salvini ilə anlaşmır. Bundan əlavə, ziddiyyətlər təkcə sağçı fraksiyalar arasında deyil, həm də onların daxilində də mövcuddur, bəzi partiyalar, məsələn, İtaliya Qardaşları kimi hakimiyyətdə, digərləri isə Polşa Qanunu və Ədaləti kimi müxalifətdədir. Bu vəziyyətdə, eyni parlament qrupu daxilində siyasi partiyalar hətta bütün avroskeptikləri birləşdirən miqrasiya kimi məsələlərdə fərqli səs verə bilər. Belə ki, Meloni və onun partiya üzvləri 2024-cü ilin aprelində yeni miqrasiya paktını təkmil variant hesab edərək dəstəkləyib, Polşa nümayəndə heyəti isə buna son dərəcə mənfi reaksiya verib. Və nəhayət, bu gün ən sərt suverenlər pandemiyadan sağalmada Brüssel fondlarının rolunu xatırlayaraq Aİ-dən çıxmaq barədə düşünmürlər. Sadalanan problemlər Avropanı yeni Amerika administrasiyasının böyük güc nümunələri əsasında yenidən formatlaşdırmaq cəhdlərinin bir çox maneələrlə qarşılaşacağının ən yaxşı sübutudur və yeni “Avropanın oğurlanması” çətin ki, uğur qazansın.

***V.VƏLİYEV***

# Süni intellektin istehsala hansı təsirləri var?

"Müasir dövrdə süni intellekt (Sİ) və robot texnologiyaları istehsalat sahəsində inqilabi dəyişikliklərə səbəb olur. Bu texnologiyalar məhsul istehsalının sürətini, dəqiqliyini və səmərəliliyini artıraraq sənaye proseslərini daha avtomatlaşdırılmış və ağıllı hala gətirir. Süni intellekt, maşınların və proqram təminatlarının insan müdaxiləsinə minimal ehtiyac duymadan qərarlar qəbul etməsinə və təkmilləşməsinə imkan verən bir texnologiyadır". Bu



EKSPERT AÇIQLADI







sözləri **Kibertəhlükəsizlik üzrə mütəxəssis Fərid Əmirov** SİA-ya açıqlamasında deyib. Onun sözlərinə görə, istehsalatda süni intellekt bəzi sahələrdə tətbiq olunur ki, bunlara keyfiyyətə nəzarət və qüsurların aşkarlanması, avtomatlaşdırılmış qərarvermə və analitika, təchizat zəncirinin optimallaşdırılması, robotların idarə edilməsi və öyrədilməsi aid edilir: "SI sistemləri yüksək dəqiqliklə məhsulların keyfiyyətini yoxlaya bilir. Kameralar və sensorlar vasitəsilə istehsal xəttində qüsurlu məhsulları avtomatik olaraq aşkarlayır və çeşidləyir. Bu, insan faktorundan qaynaqlanan səhvləri minimuma endirir və məhsul keyfiyyətini artırır. SI böyük həcmli istehsalat məlumatlarını analiz edərək daha ağıllı və optimal qərarlar qəbul edə bilir. Məsələn, maşınların istismar müddətini proqnozlaşdıraraq texniki xidmətin nə zaman aparılmalı olduğunu müəyyən edir. Süni intellekt bazar tələbatını analiz edərək anbar ehtiyatlarını optimallaşdırmağa kömək edir. Lazımsız xərcləri azaldır və istehsal prosesini daha çevik edir. Süni intellektə əsaslanan sistemlər robotların hərəkətlərini və vəzifələrini təkmilləşdirərək onları daha ağıllı edir. Adaptiv robotlar istehsalat prosesində baş verən dəyişikliklərə uyğunlaşaraq effektiv işləyir".

Mütəxəssis həmçinin bildirib ki, robot texnologiyaları fiziki əməliyyatların avtomatlaşdırılmasını təmin edən ağıllı mexaniki qurğulardır: "Bu robotlar müxtəlif istehsalat sahələrində istifadə olunur və aşağıdakı üstünlükləri təmin edir:

**1. Montaj və istehsal proseslərinin avtomatlaşdırılması**

Avtomobil, elektronika və digər sənaye sahələrində robotlar məhsulların montajını insanlardan daha sürətli və dəqiq şəkildə həyata keçirir. Müasir robot qollar qaynaq, boya çəkmə, lehimləmə və digər mürəkkəb əməliyyatları yüksək dəqiqliklə yerinə yetirir.

**2. Təhlükəli şəraitdə işləmə imkanı**

İnsanlar üçün təhlükəli ola bilən yüksək temperatur, radiasiya və ya kimyəvi maddələrlə işləyən zavodlarda robotlar istifadə olunur. Məsələn, nüvə energetikası və kimya sənayesində robotlar insanların yerinə riskli işləri görür.

**3. Sürətli və fasiləsiz fəaliyyət**

Robotlar 24/7 fasiləsiz işləyə bildiyi üçün istehsalatın dayanmadan davam etməsinə imkan yaradır. Müəssisələr üçün bu, məhsuldarlığın və gəlirliliyin artması deməkdir.

**4. Xərclərin azaldılması və səmərəliliyin artırılması**

- Robot texnologiyaları ilkin mərhələdə yüksək investisiya tələb etsə də, uzunmüddətli perspektivdə əmək xərclərini azaldır və istehsal prosesini daha ucuz və effektiv edir.

- Süni İntellekt və Robot Texnologiyalarının Ümumi Üstünlükləri

- Daha yüksək məhsuldarlıq – İstehsalat prosesləri avtomatlaşdığı üçün daha çox məhsul istehsal edilir.

- Dəqiqlik və minimal səhv faizi – Robotlar və süni intellekt insan səhvlərini azaldır və məhsul keyfiyyətini artırır.

- Xərclərin optimallaşdırılması – İşçi qüvvəsinə və xammal istifadəsinə qənaət edilir.

- Təhlükəsizlik və risklərin azalması – İnsanların sağlamlığını təhlükəyə atan işlərdə robotlar istifadə olunur.

- İstehsalatın çevikliyi – Süni intellekt və robotlar bazar tələblərinə uyğun olaraq istehsal proseslərini tez bir zamanda dəyişməyə imkan yaradır".

Fərid əmirov qeyd edib ki, süni intellekt və robot texnologiyalarının inkişafı ilə birlikdə istehsalat sektoru daha ağıllı və avtomatlaşdırılmış bir səviyyəyə çatacaq: "Gələcəkdə Daha adaptiv və öyrənən robotlar, tam avtomatlaşdırılmış fabriklər, süni intellektin daha geniş miqyasda tətbiqi, insan və robot əməkdaşlığının artırılması kimi yeniliklər gözlənilir. Bu texnologiyalar insanların monoton işlərdən azad olmasına və daha yaradıcı, analitik sahələrdə çalışmasına imkan yaradacaq. Bununla yanaşı, müəssisələr üçün də yüksək səmərəlilik və rəqabət üstünlüyü təmin edəcək".

***Xeyrənsə Piriyeva***

# "Suriyada ümumi sabitlik bərqərar ediləcək"



*"Suriya prezidenti Əhməd əl-Şara artıq Qərb liderləri ilə diplomatik danışıqlara başlayıb". Bunu SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. O bildirib ki, Almaniyanın kansleri, həmçinin Fransa prezidenti ilə telefon danışıqları aparılıb: "Göründüyü kimi Suriyaya qarşı sanksiyaların aradan qaldırılması üçün artıq beynəlxalq konstitusiya formalaşır. Bu istiqamətdə Türkiyə də çox ciddi şəkildə siyasət həyata keçirir. Əhməd əl-Şaranın Səudiyyə Ərəbistanı və Türkiyəyə səfəri, həmçinin Qətər əmirinin Suriyaya səfəri Suriyanın yenidən qurulması, Suriyada təhlükəsizliyin təmin olunması istiqamətində ciddi irəliləyişlərə gətirib çıxaracaq.*

Xüsusilə, Suriyanın Şimal-şərqində PKK terror təşkilatı hələ mövcudluğunu qoruyub saxlayır. Orada Amerika Birləşmiş Ştatlarının da siyasəti xüsusi önəm daşıyır. Düşünürəm ki, ABŞ-ın da siyasətinin Suriyanın bu hökumətinə, hakimiyyətinə münasibəti normal olacaq. ABŞ da sanksiyaları bir müddətdən sonra aradan qaldıracaq. Düşünürəm ki, Suriyada ümumi sabitlik bərqərar ediləcək."

***Söylü Ağazadə***



# Birinci təhsil, sonra...

Mətanət Məmmədova

***Dünyanın hər yerində təhsil ölkəmizdəki qədər əlçatan deyil. Ölkələr var ki, qızlar təhsil almaq arzusu il yaşayır, lakin arzusuna çata bilmir. Təhsilverən ölkələr var ki, bundan yalnız imkanları yetən ailələrin övladları istifadə edə bilir: pulun var, təhsilin var, pulun yoxdur, məktəbin kəndarına belə ayaq basa bilməzsən.***

Ölkələr var ki, kəndində, qəsəbəsində məktəblər elə bir vəziyyətdədir ki, orada təhsil alanların həyatı hər an təhlükə qarşısındadır. Kitabı, dəftəri ala bilməyən ailələr var. Çünki kitab məktəblər tərəfindən verilmir, məcbursan ki, özün alasan.

11 fevral Beynəlxalq Qadın və Qızların Elmdə İştirakı Günüdür. Bu günün mahiyyəti üzərindən yola çıxaraq məktəb, təhsil məsələsinə toxunmaq, bəzi dünya ölkələrindən fərqli olaraq bizdə təhsil üçün yaradılmış imkanlardan danışmaq, belə olduğu təqdirdə təhsil almağın vacibliyindən söhbət açmaq istədim.

Ölkəmizin hər bir şəhər, qəsəbə və kəndində məktəb var. Məktəblər kitabla dövlət tərəfindən təmin edilir. Çoxsaylı məktəblərimiz var ki, bəzi ölkələrdə ali təhsil ocaqları belə binalarda yerləşmir və ya bizdəki qədər təminatı, təchizatı yoxdur.

Belə isə qızların ən birinci təhsili vacibdir. Bəzi valideynlər var ki, qızı həddi-buluğa çatan kimi onu ərə verməyə tələsir. Erkən nikahların da təməli belə qoyulur. Lakin onların hər biri düşünməlidir ki, ailə qurmağın öz vaxtı var. Ən birinci qızların təhsili vacibdir. Daha sonra təhsillərini davam etdirib bir sənət sahibi olmaları mütləqdir. Bundan sonra isə təbii ki, ailə qurmağın vaxtı gəlib çatır.

Təhsilsiz qadın həyatda heç vaxt özünü xoşbəxt hesab edə bilmir. Həyatının istənilən anında təhsil almamağın peşmançılığını yaşayır. Maddi vəziyyəti nə qədər yaxşı olsa da, həyat yoldaşı istədiyi hər şeylə onu təmin etsə də, bir gün təhsilsiz olmağın acılığını yaşayır və peşman olur. Təhsilsiz qadın övladının da təhsili il məşğul ola bilmir. Lazım gəlir ki, həmin uşaqlar əlavə müəllim yanına göndərilsin. Lakin ana təhsilli olanda ibtidai və orta təhsil üzrə övladının dərsləri ilə məşğul ola bilir.

Bəzən, qıza təhsil nə gərək, deyən valideynlər olur. Belə ata-ananın qız övladı oxumaq istəsə də, qarşısı alınır, yerində oturdulur. Ürəkləri oxumaq, təhsil almaq üçün çırpınsa da, lakin ataları buna imkan vermir. Valideynlər belə qızları sanki ərə verib yükü çiynindən atmaq, azad nəfəs almaq istəyirlər.

Çox təəssüf ki, hələ də əsrlər öncənin təfəkkürü ilə yaşayan insanlar var və onlar qızı "duz yükü" hesab edir, elə ki, həddi-buluğa çatdı, ərə verib bu yükdən qurtarmağa çalışır. Lakin oğlan övladlarının təhsili üçün hər cür şərait yaradır, hələ üstəlik xarici ölkələrdə təhsilini davam etdirməsinə də köməklik göstərir. Bu oğlanlar olur savadsız, təhsilsiz bacıların alim, ziyalı qardaşı. Hansı ki, həmin bacıların təhsil almaq arzusu onlardan qat-qat çox olur.

Odur ki, qızlar üçün ən birinci təhsil, sonra ailə, deyərdim. Düzdür, digər ölkələrlə müqayisədə bizdə qızların təhsil alması yüksək səviyyədədir. Lakin qoy bütün qız ata-anası istisnasız olaraq qızların təhsil almasını üstün tutsunlar. Baxmayaraq ki, XXI əsrdə yaşayırıq, hələ də eşidirik ki, filan rayonun filan kəndində məktəbli qız qoşulub qaçıb, filankəsin məktəbyaşlı qızı ərə gedir, toya hazırlaşırlar.

"Yox" deyək, qızların erkən nikaha daxil olmasına, təhsil almadan ailə qurmasına. Unutmayaq ki, qız çox halda özbaşına qoşulub kiminləsə gedə bilməz valideynlərinin də razılığı olmasa. Deməli, qızların gələcək həyatına zərbə endirən elə valideynlərdir.

Birinci təhsil, sonra ailə. Bunu dərk edərək qızlarımıza diktə edək ki, ölkəmizdə ziyalı, elmlə məşğul olan qadınların sayı ilbəil artsın, ailələrimizdə ziyalı anaların sayı çoxalsın. Biz buna nail olduqca, gələcəyimiz olan övladlarımızın da təhsilə meyli artacaq. Qoy gələcəyimiz ziyalı anaların əli ilə qurulsun...

***Son illərdə Azərbaycanda mənzil bazarında müşahidə olunan qiymət artımı həm Bakıda, həm də regionlarda yaşayan insanların əsas müzakirə mövzularından birinə çevrilib. Xüsusilə paytaxtda yeni tikililərin qiymətləri sürətlə bahalaşır, kirayə bazarında isə vəziyyət daha da gərginləşib. Artan tələbat, tikinti materiallarının bahalaşmasının və müxtəlif iqtisadi faktorlar mənzil almaq istəyənlər üçün ciddi çətinliklər yaradır.***



# Bu il əmlak bazarında qiymətlərin artması müşahidə olunur?

Bəs hazırda ev almaq istəyənlər hansı çətinliklərlə qarşılaşır? Kirayə qiymətləri niyə sürətlə artır və bunun həll yolları nələrdir? SİA mövzu ilə bağlı reportaj hazırlayıb.



**Paytaxt sakini Şəfa Orucova:** "Keçən ilə nisbətən qiymətlər çox bahadır, əsasəndə Bakının mərkəzində olan evlərdə qiymət artımı müşahidə olunur. Ev alqı-satqısı ilə məşğul olan dəllalların qapısının üzərində görürsən ki, kirayə mənzil yoxdur. Satışdan çox kirayə mənzillərə ehtiyac var, bu da onlarda qiymət artımına səbəb olur. Evi olan adam mənzilini satanda baha satacaq və alan şəxsdə məcbur olub onu baha alacaq".



**Paytaxt sakini Könül Yusifova:** "Mən mənzillərin qiymət artımından qətiyyən razı deyiləm. Qiymət artımı bir kənara, hətta kirayə mənzil tapmaq qətiyyən mümkün deyil. Hazırda tələbələrdən və işçi axınından dolayı Bakıda yer tapmaq mümkün deyil. Ona görə də məcbur olub ya qohum evində qalırıq, ya da ki uzaq yerlərdən gəlirik".



**Paytaxt sakini Xəyal Quluzadə:** "Kirayə mənzillərin artımı digər regionlara baxanda çox bahadır. Əsasəndə mərkəz yerlərdə qiymət daha kəskin artıb. Mənim fikrimcə insanın cibinə uyğun qiymətlər olmalıdır. Bununla bağlı tədbir görülsə, yaxşı olar ki, hər insanın büdcəsinə uyğun mənzil tapa bilinsin".

**Paytaxt sakini Toğrul Nürsəlli:** "Əvvəlki illərə nisbətən qiymətlər çox artıb. Əvvəlki illərdə bu belə vəziyyətdə deyil. Hazırda ev almaq istəyirəm lakin, qiymətlərin baha olması səbəbi ilə ala bilmirəm.



Xüsusən də şəhərin mərkəzinə və Mərdəkan ərazilərində qiymətlər çox yüksək dərəcədədir".



Məsələ ilə bağlı **daşınmaz əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev** bildirir ki, artıq uzun illərdi ki Bakıda daşınmaz əmlak və kirayə mənzillər üzrə qiymətlərdə xüsusi artımlar müşahidə olunur: "Əmlak bazarında artım 2023-cü ildən baş verdi ki, təkcə həmin ildə 10 faizdən 30 faizə qədər qiymət artımları oldu. Lakin daha sonra 2024-cü il və hal-hazırki ildə qiymət artımları müşahidə olunsa da, ötən ildəki kimi kəskin şəkildə deyil. Buna əsas səbəb hazırki vəziyyətdə əmlak bazarında müştəri qıtlığıdır. Əvvəl ki ildə alıcıların sayı çox idi, amma indiki vaxtda alıcıların sayı az olduğuna görə bazarda durğunluq yaradıb. Bu da qiymətlərin qismən stabilləşməsinə gətirib çıxaracaq".

Ekspert həmçinin vurğulayıb ki, ümumən ölkə üzrə qiymətlərə nəzər salsaq, daha çox Bakının mərkəzi ilə bərabər, Xırdalan şəhərində də artım müşahidə olunur: "Xırdalan şəhərindəki daşınmaz əmlakların satış qiymətinə biz nəzər salsaq görərik ki, 6-7 il bundan əvvəl təmirsiz çoxyaşayış binalarındakı mənzillərin 1 m² 600-800 manat arası təşkil edirdisə, hal-hazırda həmin ərazilərdə tikilməkdə olan binaların satış qiymətləri 1200-1400 manat, hətta daha baha qiymətə təklif olunur.

Regionlara gəldikdə isə, hal-hazırda turistik zonalarda mənzillərin gündəlik kirayə qiymətləri ərazisindən və şəraitindən asılı olaraq 50 manatdan təqribi 600-700 manat arasında dəyişir. Bu vəziyyət də Azərbaycanın regionlarında olan mənzil qiymətlərinin baha olması heç də əlçatan deyil. Lakin tələbat daha çoxdur. Turistlik bölgədəki mənzillərə tələbatın artması həmin ərazilərdə daşınmaz əmlakın satış qiymətlərində kəskin artımlar müşahidə olunur. İndiki vəziyyətdə torpaqların baha olması və orada tikiləcək binaların sayının az olması qiymətlərin kəskin şəkildə artmasından xəbər verir".

Bununla yanaşı mövzu ilə bağlı **Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, iqtisadçı ekspert Vüqar Oruc** qeyd edib ki, əmlak bazarında əgər tələblər varsa qiymətlərin artması labüddür: "Amma bəzi hallarda alqı-satqı faktları o qədər də olmur, lakin buna baxmayaraq qiymət artımına şahidlik edirik. Eyni zamanda alqı-satqının səviyyəsindən asılı olmayaraq qiymətlər artır, bu da ölkədə iqtisadi inkişaf, 30 ildən artıq işğalda olan torpaqların azad edilməsi nəticəsində, ölkəmizin investisiya cazibədarlığının artması, o cümlədən büdcənin böyüməsindən irəli gəlir".

Həmçinin ekspert vurğulayıb ki, daşınmaz əmlakda hər il demək olar ki, əvvəlki ilə nisbətən qiymət artımı baş verir: "Hətta hesablamalarımıza əsasən hər il 10-15 faiz daşınmaz əmlakla bahalaşma müşahidə edirik. 134Eyni zamanda tikinti materiallarının qiymətinin artması, mənzil bazarında bahalaşmaya səbəb olur. Əgər tikinti materiallarının 1 m² bahalaşırsa, avtomatik olaraq mənzil bazarına təsir edir. Əvvəl 1 m² üçün 150- 300 manat arası məbləğ tələb



olunurdusa, indiki halda bu 2 qat artımda müşahidə olunur. Həmçinin işçi qüvvəsinin əmək haqlarının artımı buna xeyli təsir göstərir.

Daşınmaz əmlakın 2025-ci ildə də artımını müşahidə edəcik. 2025-ci ildə 13-15 faiz qiymətlərin artımı ilə qarşılaşacıq. Amma fors major hadisələr, yeni təbii fəlakət, neftin ucuzlaşması halları olmasa, mütləq daşınmaz əmlakın qiymətində artımlar olacaq".

Ev alqı-satqısı və kirayə bazarındakı artımlar göstərir ki, mənzil sektoru daim dəyişən iqtisadi və sosial amillərdən asılıdır. Qiymətlərin yüksəlməsi və tələbin artması fonunda vətəndaşların mənzil sahibi olması çətinləşir, kirayə bazarında isə əlçatan mənzil tapmaq probleme çevrilir. Mövcud vəziyyətin stabilləşməsi üçün ya yeni tikililərin sayı artırılmalı, ya da dövlət tərəfindən tənzimləyici tədbirlər görülməlidir.

***Xeyrənsə Piriyeva***

REPORTAJ





# Alternativ enerji: daha uzunömürlü dünya

***Dünyanın sürətlə artan əhalisinin və inkişaf etməkdə olan sənayenin enerji tələbatını məhdud resurslarla ödəmək mümkün deyil. Enerji istehsalı ilə istehlak arasında fərq getdikcə artır. Qlobal enerji istehlakının 2035-ci ilə qədər 1998-ci ildə istehlak edilən enerjidən iki dəfə, 2055-ci ildə isə üç dəfə çox olacağı təxmin edilir. Digər tərəfdən, neft, təbii qaz, kömür və nüvə enerjisi kimi "bərpa olunmayan" ənənəvi enerji mənbələri ətraf mühiti və insan sağlamlığını getdikcə daha çox hədələyir. Ənənəvi enerji mənbələrindən, nəqliyyat, yaşayış və sənaye sektorlarında geniş istifadə problemi daha da mürəkkəbləşdirir.***

Dünyada meşələrin sayının azalması, qalıq yanacaqların yandırılması nəticəsində ayrılan karbon qazının (CO2) miqdarının artması ilə nəticələnir. Bu qaz, atmosferdəki qazlarla birlikdə günəş işığının yer üzündə əks olunmasının qarşısını alır. Bu şəkildə "istixana effekti" yaranır və iqlim dəyişikliyinə səbəb olur. Qlobal istiləşmənin bu şəkildə artmağa davam edəcəyi təqdirdə 2040-cı ilə qədər dəniz səviyyəsinin bir metrə qədər yüksələcəyi və bu halda dünyanın ən böyük şəhərlərinin su altında qalacağı təklif edilir.

## Bərpa olunmayan enerji immun sistemimizi çökdürür

Qalıq yanacaqların yanması nəticəsində ayrılan qazlardan biri olan karbonmonoksit (CO) orqanizmdəki oksigen miqdarını azaldaraq ölümə səbəb olur, kükürd dioksid (SO2) isə xərçəngə səbəb olur. Təbii qazın yanması nəticəsində yaranan qoxusuz və görünməz azot oksidi (NO) atmosferdəki digər qazlarla vəhdəd təşkil edərək orqanizmin immun sistemini çökdürür. Son illər kütləvi şəkildə immun çatışmazlığı problemi yaşamağımızın əsas səbəblərindən biri də məhz budur.

1970-ci illərdə bir çox sənayeləşmiş ölkələr tərəfindən atmosferin çirklənməsinin qarşısını almaq üçün tədbirlər görülməyə başlasa da, atmosfetdə bu tullantıların yayılmasının, habelə transsərhəd təsirlərin yaranmasının qarşısını almaq mümkün olmayıb. Külək, yağış, qar, fırtına, qasırğa kimi təbiət hadisələri ilə yayılan çirkli hava insan sağlamlığına ziyan vurmağa, torpaq və su ehtiyatlarında turşuluğun artmasına səbəb olmağa, bəzi canlı növlərinin məhvinə səbəb olmağa hələ də davam edir.

Proqnozlara görə neftin 50, təbii qazın isə 200 ildən sonra tükənəcəyi ehtimalı var, buna görə də bəşəriyyət təbiətə uyğun, təmiz və nisbətən ucuz enerji mənbələri axtarmalı idi. Bu kontekstdə, zaman baxımından daha uzunömürlü və tükənməz olan, həmçinin dünyanın hər bir bölgəsində mövcud ola bilən bərpa olunan enerji mənbələrindən daha geniş istifadə istiqamətində addımlar atılmağa başlanıb.

## İstehsal istehlaka adekvat deyil

Bərpa olunan enerji, təbiətin öz təkamülü ilə yenidən eyni formada əldə edilə bilən enerjilərə deyilir. Bərpa olunan enerji mənbələrinin ən mühüm xüsusiyyətləri, karbon dioksid emissiyalarını azaltmaqla ətraf mühitin mühavizəsinə dəstək olması, daxili qaynaqlar olduğu üçün enerji almaq üçün xaricdən asılılığın azaldılması və məşğulluq imkanlarının artmasına töhfə verməsi kimi bir çox üstünlüyə malik olmasıdır. Yəni, bərpa olunan enerji resursları əlçatandır, əldə edilməsi asandır. Bərpa olunan enerji mənbələri, biokütlə enerjisi (bioqaz), külək enerjisi, günəş enerjisi, hidroelektrik enerji, geotermal enerji, dalğa enerjisi, hidrogen yanacağı enerjisi, qabarma-çəkilmə enerjisi, dünya okeanının termik enerjisi hesab olunur.

Hazırda ekoloji cəhətdən təmiz alternativ və bərpa olunan enerji mənbələrindən elektrik enerjisinin istehsalında ABŞ, Rusiya, Kanada, Almaniya, Finlandiya,



Norveç, Danimarka, İspaniya, Çin, Yaponiya və digər inkişaf etmiş ölkələr xeyli öndədir.

Atmosferi çirkləndirən zəhərli qaz və hissəciklərin olmaması, bərpa olunmayan enerji mənbələri ilə müqayisədə daha az istismar xərcləri tələb edir. Kənd təsərrüfatı sektorunda istifadəsinə görə hidroenergetika və su bəndləri əvəzsiz hesab edilir. Bu gün dünyada potensial hidroenerjinin yalnız üçdə biri istifadə olunur. Bu göstərici dünya elektrik enerjisi istehsalının 17%-nə uyğundur. Digər tərəfdən, böyük su anbarlarının tikintisinə qarşı olan Dünya Bankı bu istiqamətdə siyasətini dəyişməyə başlayıb. Enerji istehlakı, orta hesabla digər dünya ölkələrindən xeyli aşağı olan ölkələrdə vəziyyət dəyişir. Sürətlə artan əhalinin tələbatını ödəmək üçün, qısa müddətdə daha çox enerji əldə edilməlidir. Bu isə ancaq iri miqyaslı anbar layihələrinin həyata keçirilməsi ilə mümkün olacaq.

## Ağaclar bərpaolunan enerji mənbəyi olmamalıdır

Geotermal enerjidən elektrik enerjisi istehsalı, dünyada ilk dəfə olaraq İtaliyada həyata keçirilməyə başlandı və bu gün Amerika, Filippin və Yeni Zelandiya başda olmaqla 22 ölkədə 8274 MVt elektrik enerjisi istehsal olunur. Ağac bərpa olunan enerji mənbəyi kimi əhəmiyyətli potensiala malik olsa da, sürətli istehlakı səbəbindən "bərpa olunan" xüsusiyyətini itirməyə başlayıb. Hazırda dünyada 1 dəqiqədə 50 hektar meşə məhv edilir. Biokütlə və dəniz enerjisi ən təmiz enerji mənbələri hesab edilsə də, qlobal miqyasda onların ümumi enerji istehsalına töhfəsi cəmi 1%-dir.

Dünyada günəş enerjisindən istilik almaq texnologiyaları da tədricən inkişaf edir. Ölkəmizdə də alternativ enerjidən istifadə yolunda ciddi addımlar atılır. Günəş və külək alternativlərindən, habelə su vasitəsi ilə enerji almaq üsullarından istifadə edilir. Bu istiqamətdə həyata keçirilən işlər zamanla sürətlənir, tətbiq sahələri genişləndirilir. Bakının küləklər şəhəri olması, bu enerji növündən çox fayda əldə edə biləcəyimiz deməkdir. Çünki, səs-küyünün çox olması, televiziya və radio dalğalarının yayılmasına mənfi təsir göstərməsi, quşlara zərər verməsi ilə bağlı mübahisələrə baxmayaraq, küləkdən enerji alan külək turbinlərindən



istifadə getdikcə artır. Gücü 5 MVt-a qədər olan külək turbinlərindən Amerika, İngiltərə, Almaniya və Danimarkada geniş istifadə olunur.

Təxmini hesablamalara görə, Azərbaycanda hər il sənaye müəssisələri və avtomobil nəqliyyatları tərəfindən atmosfer havasına 1 milyon tondan artıq zərərli maddələr atılır. Bunun yarısı sənaye müəssisələrinin, digər yarısı isə avtonəqliyyat vasitələrinin payına düşür. Bakı şəhərinin atmosfer havasına yarım milyon tondan artıq zərərli maddələr atılır. Bu tullantıların təxminən 30 faizi sənaye müəssisələrinin, 70 faizi isə avtonəqliyyat vasitələrinin payına düşür. Atmosfer havasını çirkləndirən əsas mənbələr neftçıxarma, neft emalı, neft-kimya və energetika müəssisələri və avtonəqliyyatdır.

Azərbaycanın təbii iqlim şəraiti günəş enerjisindən istifadə etməklə, elektrik və istilik enerjisinin istehsalını artırmağa imkanlar açır. Günəşli saatların miqdarı il ərzində Azərbaycanda 2 400 - 3 200 saatdır. Yəni Azərbaycan ərazisinə düşən günəş şüalarının miqdarı digər ölkələrlə müqayisədə üstünlük təşkil edir.

## Enerji alternativləri – davamlı, zərərsiz

Bərpa olunan enerji mənbələri kömür, neft və təbii qaz kimi bərpa olunmayan xammala əla alternativdir. Günəş enerjisi bərpa olunan enerjinin ən populyar növüdür. Fotovoltaik sistemlər və günəş enerjisi kollektorları sayəsində enerji günəşdən əldə edilir. Bu üsul, günəşin istiliyini elektrik enerjisinə çevirmək üçün tutur, ikincisi isə, məsələn, məişət və ya sənaye sistemlərində isti su hazırlamaq üçün istifadə edilə bilən istilik enerjisinə çevirir.

Yaşıl enerjinin digər vacib sütunu külək stansiyalarıdır. Onlar kinetik enerjini elektrik enerjisinə çevirən səmərəli turbinlərdən və avadanlıqlardan ibarətdir. Aydındır ki, külək enerjisindən istifadə edərək bərpa olunan enerji istehsalı küləyin yüksək olduğu yerlərdə daha sərfəlidir. Sizcə də Bakının həmişə şikayətləndiyimiz küləyi həm də enerji əldə etmək üçün böyük şans deyilmi?

Hidroelektrik enerji daxili suların təbii axınlarından istifadə olunaraq əldə edilir. Su elektrik enerjisi əsasən kifayət qədər güclü cərəyan və ya sıldırım yamacı olan çaylardan alınır. Elektrik enerjisi, mexaniki enerjini elektrik enerjisinə çevirən xüsusi turbinlərlə təchiz edilmiş su elektrik stansiyalarında istehsal olunur.

Yaşıl enerjinin növbəti mənbəyi yeraltı sularda və plutonik suxurlarda olan geotermal istilikdir. Ona yerin altından gələn enerji deyirik, bu enerji növü ilk növbədə istilik mənbəyi kimi istifadə olunur. Geotermal istilik enerji istehsal etmək üçün iki yolla istifadə edilə bilər - dolayı və birbaşa.

Biokütlədən alınan enerji də inkişaf etdirilməli olan enerji mənbəyidir. Biokütlə, bitki və ya heyvan mənşəli maddələrdir. Həm təsərrüfatlardan, həm də ev təsərrüfatlarından əldə edilən tullantılar və qalıqlar yandırma, qazlaşdırma və ya esterifikasiya proseslərinə məruz qala bilər və bu üsulla enerji əldə edilir.

## Azərbaycan alternativ enerjidən bəhrələnə bilirmi?

Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Azərbaycanın ümumi elektrik enerjisi istehsalı gücü 8320,8 MVt, iri su elektrik stansiyaları daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1687,8 MVt-dır ki, bu da ümumi gücün 20,3 %-ni təşkil edir.

Hidroenerji gücü 1301,8 MVt (35 ədəd stansiya, 24-ü kiçik su elektrik stansiyası), külək enerjisi gücü 66,4 MVt (8 stansiya, 3-ü hibrid), bioenerji gücü 37.7 MVt (2 stansiya, 1-i hibrid), günəş enerjisi gücü 281,9 MVt (13 stansiya, 3-ü hibrid) təşkil edir. 3 ədəd hibrid elektrik stansiyasında (Qobustan, Culfa və Qala Ekoloji Park) külək – 2,85 MVt, günəş – 3,8 MVt və bioenerji – 0.7 MVt əsaslı qurğular quraşdırılıb. Naxçıvan Muxtar Respublikasında ümumi gücü 39 MVt olan günəş elektrik stansiyaları istismar edilir. İri su elektrik stansiyaları daxil edilmədən bərpa olunan enerji mənbələri üzrə qoyuluş gücü 2023-cü ildə 529,3 MVt olmaqla ümumi elektrik enerjisi istehsalı gücünün 6,4 %-ni təşkil edib.

2023-cü il ərzində respublikada elektrik enerjisinin istehsalı 29,3 milyard kVt•st təşkil edib. Bu dövrdə elektrik enerjisinin istehsalı SES-lərdə 1757,2 mln. kVt•st, digər mənbələr (KES, GES və BMTYZ) üzrə isə 359 mln. kVt•st olub. İl ərzində külək elektrik stansiyalarında 56,6 mln. kVt•st, günəş elektrik stansiyalarında 79,4 mln. kVt•st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda 223 mln. kVt•st elektrik enerjisi istehsal edilib. Bərpa olunan enerji mənbələri hesabına istehsal olunmuş elektrik enerjisi ümumi istehsalın təqribən 7 %-ni təşkil edib.

*Lalə Mehralı*

# İstehlakçının ehtiyaclarını necə anlamaq olar?

***“Brendinq yalnız loqo və ya ad seçməkdən ibarət deyil, bu, istehlakçının yaddaşında və emosional dünyasında dərin iz buraxan kompleks bir prosesdir. Güclü brend yaratmaq üçün şirkət yalnız məhsul və ya xidmət təqdim etməklə kifayətlənməməli, eyni zamanda dəyər yaratmalı və bazarda öz unikallığı ilə seçilməlidir. İstehlakçı niyə məhz bu brendi seçməlidir? Bu suala düzgün cavab tapmaq, brend strategiyasının əsasını təşkil edir.***

Hər bir uğurlu brendin arxasında onu digərlərindən fərqləndirən fundamental dəyərlər dayanır. Brendin əsas vəzifəsi bazarda fərqlənmək, öz auditoriyası üçün

AYDINLIQ GƏTİRİLDİ

xüsusi bir anlam daşımaqdır. Şirkət müştərilərinə nə vəd etdiyini və bu vədləri necə yerinə yetirəcəyini dəqiq müəyyənləşdirməlidir”. Bu sözləri **Marketinq və İctimai Əlaqələr Departamentinin rəhbəri Nicat Hacızadə** SİA-ya açıqlamasında deyib. Onun sözlərinə görə, brend bəzi suallara



cavab verməlidir:

“Məqsədimiz nədir? – Brendin əsas missiyası nədir və hansı problemi həll edir?

Hədəf auditoriyamız kimdir? – Məhsul və ya xidmət kimlər üçün nəzərdə tutulub?

Nə ilə fərqlənirik? – Bizim brendi digərlərindən fərqləndirən əsas xüsusiyyətlər nələrdir?

Brend hansı dəyərləri təmsil edir? – Müştərilərin bizim brendlə əlaqələndirdiyi əsas duyğular və düşüncələr hansılardır?

Bu sualların cavabı brendin bazardakı mövqeyini müəyyənləşdirir və istehlakçının şüurunda aydın bir təsvir formalaşdırır. Brend strategiyası yalnız şirkətin daxili dəyərlərinə əsaslanmamalıdır. Müştəri ehtiyaclarını, alış vərdişlərini və davranış psixo-



logiyasını anlamaq uğurun açarıdır. Brend istehlakçının gözləntilərini nə qədər yaxşı başa düşərsə, onunla daha güclü əlaqə qura bilər. Həmçinin İstehlakçı davranışını anlamaq üçün bir çox faktorlara diqqət yetirmək lazımdır.

Demoqrafik göstəricilər – Müştərilərin yaşı, cinsi, təhsili, gəlir səviyyəsi və digər xüsusiyyətləri.

Psixoqrafik xüsusiyyətlər – Müştərilərin dəyərləri, maraqları və həyat tərzi.

Alış motivasiyası – İstehlakçı niyə bu məhsulu alır? Onun ehtiyacları və gözləntiləri nələrdir?

Müştəri sadiqliyi – Brendə nə qədər bağlıdırlar və yenidən alış etmə ehtimalları nə qədərdir?

Bu faktorları analiz edərək, brend istehlakçılar üçün daha cəlbedici və uyğun mesajlar hazırlaya bilər”.

Nicat Hacızadə qeyd edib ki, uğurlu brend yaratmaq üçün təkcə özünə yox, bazardakı rəqiblərə də diqqət yetirmək lazımdır: “Rəqib analizinin əsas məqsədi bazardakı boşluqları müəyyən etmək və brendi daha güclü mövqeyə çıxarmaqdır.



Rəqib analizi üçün əsas addımlar:

Birbaşa və dolayı rəqibləri müəyyənləşdirmək – Həm eyni sektorda fəaliyyət göstərən, həm də dolayı yolla brendlə rəqabət aparan şirkətləri araşdırmaq.

Güclü və zəif tərəfləri analiz etmək – Rəqiblərin hansı sahələrdə üstün olduğunu və harada boşluqların olduğunu müəyyən etmək.

Bazarda fərqləndirici üstünlükləri müəyyənləşdirmək – İstehlakçı niyə məhz bu brendi seçməlidir? Cavab rəqiblərin etdiklərindən fərqli və daha güclü olmalıdır.

Müştəri rəylərini nəzərə almaq – İstehlakçılar rəqiblər haqqında nə düşünür? Onların məmnunluq və şikayətləri hansı mövzulardadır?

Rəqibləri analiz etməklə brend bazardakı yerini daha dəqiq müəyyən edə və öz mesajlarını düzgün strategiya ilə formalaşdıra bilər.

Həmçinin o vurğulayıb ki, brendinq təkcə konseptual strategiyadan ibarət deyil, eyni zamanda vizual və verbal ünsiyyət elementləri də çox önəmlidir: “Güclü vizual kimlik və düzgün ünsiyyət dili brendin tanınmasını və yadda qalmasını təmin edir.

Vizual elementlər:

Loqo – Brendin əsas vizual simvolu olmalı və onun dəyərlərini əks etdirməlidir.

Rəng palitrası – Müxtəlif rənglər istehlakçılara fərqli emosiyalar ötürə bilər.

Şriftlər və dizayn üslubu – Brendin vizual xarakterini tamamlamaq üçün uyğun tərz seçilməlidir.

Verbal ünsiyyət:

Sloqanlar və mesajlar – Aydın və yadda qalan ifadələr brendin tanınmasını artırır.

Ünsiyyət tonu – Brendin danışıq üslubu müştərilər üçün əlçatan və cəlbedici olmalıdır.

Sadə və anlaşılan brend mesajları istehlakçının yaddaşında daha yaxşı qalır və emosional bağlılıq yaradır.

Brend uzunmüddətli uğur qazanmaq üçün etibarlı və inamlı olmalıdır. Bunun üçün:

Brend verdiyi vədlərə əməl etməlidir.

Keyfiyyəti qoruyaraq sabit və davamlı xidmət təqdim etməlidir.

Müştəri gözləntilərini daim qarşılamalıdır.

Əgər brend öz dəyərlərinə sadiq qalmırsa və verdiyi sözləri yerinə yetirmirsə, istehlakçılar tez bir zamanda ona qarşı inamını itirə bilər.

Güclü brend yaratmaq üçün düzgün marketinq strategiyası vacibdir. Bu, brendin istehlakçılara çatmasını və bazarda güclü mövqeyə sahib olmasını təmin edir.

Marketinq kanalları:

Onlayn marketinq: Sosial media, vebsaytlar, e-poçt marketinqi və rəqəmsal reklamlar brendin geniş auditoriyaya çatmasına kömək edir.

Oflayn marketinq: Bilbordlar, televiziya reklamları, mağaza interyerləri və çap materialları brendin fiziki məkanda tanınmasına xidmət edir.

İnteqrasiya olunmuş strategiya: Onlayn və oflayn marketinq elementləri bir-birini tamamlamalı və ardıcıl mesaj ötürməlidir.

Uğurlu brend yalnız bir loqo və ya ad deyil, istehlakçının həyatının ayrılmaz hissəsinə çevrilən güclü bir kimlikdir. O, öz dəyərləri, emosional bağlılığı, müştəri ehtiyaclarına verdiyi cavablar və bazardakı fərqləndirici mövqeyi ilə seçilməlidir. Davamlı keyfiyyət, inam və düzgün marketinq strategiyası brendi uzunmüddətli uğura aparan əsas faktorlardır”.

***Xeyrənsə Piriyeva***

---

MÜNASİBƏT




# “Tramp müharibənin dayandırılmasında israrlıdır”

***“Amerika Birləşmiş Ştatlarının yeni prezidenti Donald Tramp hələ seçki öncəsi kompaniyalarda çıxışları zamanı bəyanatlarında dünyada tamamilə yeni siyasi xəttin yeridilməsi ilə bağlı öz baxışlarını və planlarını açıqlamışdı". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Sahil Kərimli deyib.***

O bildirib ki, Tramp yaxşı anlayır ki, Amerika Birləşmiş Ştatlarının bundan əvvəlki hakimiyyəti dünyanın bir çox nöqtələrində münaqişə və müharibə ocaqlarının yaradılması və onun daha da qızışdırılması istiqamətində yalnış siyasi xətt yürüdüb: "Bu, həm dünyada nizamın pozulmasına, geosiyasi proseslərin təhlükəli məcraya aparılmasına, eyni zamanda Amerika Birləşmiş Ştatlarının özü üçün də çox böyük mənfi tendensiyalar yaratmışdı. Bu, ilk növbədə Amerika Birləşmiş Ştatlarının iqtisadi baxımdan gücünün zəifləməsinə gətirib çıxarmışdır. Çünki müharibə olduğu, dünyanın bir çox ölkələrində münaqişə olduğu təqdirdə müharibələrin yönəldilməsində Amerika həm siyasi, həm iqtisadi, həm də hərbi baxımdan böyük dəstəklər verirdi. Bu maliyyə yardımları, tətbiq olunan iqtisadi sanksiyalar Amerikanın özü üçün də bir Bumeranq effekti yaradırdı. Tramp artıq hakimiyyətə gəldikdən sonra biz Trampın ilk addımlarında verdiyi vədlərə müəyyən qədər əməl etməsinin şahidi oluruq”.Onun sözlərinə görə, bu gün İsraillə Həmas arasındakı atəşkəsin əldə olunması məsələsində, son günlər Rusiya ilə Ukrayna arasında gedən müharibənin həlli istiqamətində ilk addımlar atılıb: ”Artıq Tramp Vladimir Putinlə telefonla danışıb. Detalları müəyyən olmasa da, təbii ki, Donald Tramp müharibənin dayandırılmasında israrlıdır. Əgər Amerika kimi böyük super dövlətin Prezidenti bu istiqamətdə çox ciddi səylər göstərirsə, bu o deməkdir ki, biz tezliklə Ukrayna və Rusiya arasında atəşkəsin imzalanmasının, müharibənin dayandırılmasının şahidi olacağıq. Əlbəttə, buna ilk növbədə həm Rusiya, həm də Ukrayna tərəfinin sülhə cəlb olunması, danışıqlar masasına əyləşdirilməsi, bundan sonra da Amerikanın özünün də maraqlarının təmin edəcək bir sülh müqaviləsinin imzalanması olmalıdır. Məlumdur ki, Amerika Birləşmiş Ştatları uzun müddətdir ki, Ukraynaya böyük yardımlar göndərib. Tramp bu yardımların qarşılığını Ukraynadan tələb edəcək və bu barədə öz bəyanatlarında da səsləndirib. Biz burada Amerika Birləşmiş Ştatlarının da öz maraqlarının təmin olunmasının şahidi olacağıq. Bu baxımdan hesab edirəm ki, tezliklə Tramp nail olacaqdır ki, Ukrayna və Rusiya arasında sülh müqaviləsi bağlansın və müharibə dayansın”.

***Söylü Ağazadə***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiya XİN müavini: "Moskva Bakı ilə İrəvan arasında uzunmüddətli sülhün tərəfdarıdır"



## *Mixail Qaluzin: "Biz Ermənistan və Azərbaycan arasında gələcək nəsillər üçün "gecpartlayan mina" qoymayacaq sülh müqaviləsi hazırlamasının tərəfdarıyıq"*

Rusiya tərəfdarıdır ki, Azərbaycan və Ermənistan münasibətlərin uzunmüddətli dayanıqlı nizamlanması demək olan sülh müqaviləsi hazırlasınlar və gələcək nəsillər üçün "gecpartlayan mina" qoyulmasın. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin



rəhbərinin müavini Mixail Qaluzin "İzvestiya"ya müsahibəsində bildirib. Onun sözlərinə görə, Moskva Qərbin təklif etdiyi tələsik sənədlərin əleyhinədir.

"Biz Ermənistan və Azərbaycan tərəflərinin- və Ermənistan və Azərbaycan bizim müttəfiq münasibətlərimiz olan ölkələrdir - münasibətlərin uzunmüddətli nizamlanmasına yol açacaq və gələcək nəsillər üçün "mina" qoymayacaq sülh müqaviləsi hazırlamasının tərəfdarıyıq. Təbii ki, biz hər zaman irəliyə doğru hərəkəti asanlaşdırmağa hazırıq, lakin Qərb Ermənistan və Azərbaycanı hansısa Qərb platformasında tezliklə yarımçıq sülh müqaviləsi bağlamağa sövq etmək istəyir.

Bu cür tələsik, düşünülməmiş və tam təsdiqlənməmiş qərarlar uzunmüddətli davamlı sülhə gətirib çıxarmaya bilər, əksinə, gələcək üçün müəyyən qarşıdurma toxumları əkə bilər ki, bunu da təbii ki, biz həm Ermənistan, Azərbaycan, Cənubi Qafqaz, həm də Rusiya üçün son dərəcə arzuolunmaz hesab edirik",- Qaluzin qeyd edib. Nazir müavini həmçinin Ermənistan tərəfini regional kommunikasiyaların blokdan açılması istiqamətində işi davam etdirməyə çağırıb.

"Təəssüf ki, Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin başçılıq etdiyi üçtərəfli qrupun nəqliyyat kommunikasiyalarının qarşısının alınması və iqtisadi əlaqələrin bərpası üzrə işi indi yarımçıq qalıb və dondurulub. Təbii ki, biz tərəfləri və ilk növbədə erməni dostlarımızı bu qrup çərçivəsində işə qayıtmağa çağırırıq. Rusiya tərəfi hər zaman mümkün yardım göstərməyə hazırdır"- diplomat deyib.

Rusiya XİN rəhbərinin müavini bəyan edib ki, Qərbin Cənubi Qafqazdakı siyasəti regionda vəziyyəti sabitləşdirməyə deyil, Moskva üçün əlavə təhlükələr yaratmağa yönəlib. Onun fikrincə, Qərb dairələri bu regiondan Rusiyaya strateji məğlubiyyət vermək üçün istifadə etməyə çalışır, hətta bəzi hallarda ayrı-ayrı ölkələri ona qarşı ikinci cəbhə açmağa razı salmağa çalışır.

"Bir tərəfdən Ermənistan, digər tərəfdən Avropa İttifaqı və bütövlükdə Qərb arasında əlaqələrin möhkəmlənməsinə gəlincə, biz aşağıdakılardan çıxış edirik. Rəsmi İrəvan, Ermənistan dövləti, erməni cəmiyyəti və erməni xalqı öz xarici siyasətini necə qurmaq, ölkəsini beynəlxalq aləmdə necə mövqe tutmaq barədə suveren qərarlar qəbul edir. Bu, onların müstəsna



hüququdur və biz, siz də yaxşı bildiyiniz kimi, heç vaxt başqa dövlətlərin daxili işlərinə qarışmırıq və heç vaxt başqa dövlətlərə heç bir resept və ya öz baxışımızı tətbiq etmirik, əksinə, dialoq yolu ilə bəzi qarşılıqlı məqbul üsullar və müəyyən məsələlərin həllinə güzəştli yanaşmalar inkişaf etdirməyə çalışırıq",- M.Qaluzin qeyd edib.

Diplomat İrəvanın Aİ ilə yaxınlaşmasını Rusiya və Ermənistan münasibətləri kontekstində şərh edib.

"Biz həm açıq şəkildə, həm də erməni dostlarımızla dialoqda Avrasiya İqtisadi İttifaqına və Avropa İttifaqına eyni vaxtda üzvlüyün mümkün olmadığını açıq şəkildə bildirdik, çünki bunlar gömrük standartları, texniki, sanitar və fitosanitar standartlar, məhsulların markalanması və sertifikatlaşdırılması, hətta intellektual mülkiyyət məsələlərinə fərqli yanaşmaları olan iki ayrı tənzimləmə sistemidir. Bunlar tamamilə fərqli sistemlərdir və eyni zamanda onların ikisinin də içində olmaq sadəcə mümkün deyil.

Ermənistanla Avropa İttifaqı arasında yaxınlaşmanın, xüsusən də vizasız rejimin xeyrinə müxtəlif layihələrlə bağlı danışıqlara başlanması ilə bağlı qeyd etdiyiniz suala gəlincə, bəli, belə danışıqlar başlayıb. Avropa İttifaqının burada da öz ampluasında olduğunu görürük, çünki vizasız münasibətlərlə bağlı heç bir vəd vermədən, ciddi qərarlar qəbul etmədən artıq Ermənistandan siyasi loyallıq və anti-Rusiya sanksiyalarına əməl etməsini tələb edir. Bütün bunlar isə Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyünün ona Aİİ ilə ticarətin artması və Aİİ-dən Ermənistana investisiyaların artması şəklində nəzərəçarpacaq və əhəmiyyətli uzunmüddətli faydalar gətirməsi fonunda baş verir",- deyə xarici işlər nazirinin müavini bildirib.

Onun sözlərinə görə, İrəvanın siyasi və iqtisadi vektorunun dəyişməsi ölkənin ÜDM-ə də ciddi təsir edəcək.

"Ermənistanla Aİİ-dəki tərəfdaşları arasında ticarət dövriyyəsinin həcmi təxminən 13 milyard dollar təşkil edir və keçən il 53% artıb, Avropa İttifaqı ilə ticarətin həcmi isə keçən il 2 milyard dollarıdan bir az artıq olub və 24% azalıb. Yəni, hətta Ermənistan statistikasının bu rəqəmlərindən belə aydın olur ki, Ermənistanın və onun xalqının hazırkı iqtisadi rifahının mənbələrinin harada olması, paradiqmanın kəskin dəyişməsi və Avropa İttifaqı platformasına keçid, fikrimizcə, istər-istəməz ÜDM-in azalması, Ermənistan biznesinə, iqtisadiyyatına və səviyyəsinə ciddi zərbələr vurmaqlaələqələndiriləcək.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
11 fevral
2025-ci il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Aldadıcı bank reklamları nə vaxta qədər davam edəcək?




***"Banklarda kredit satışı ilə bağlı müxtəlif kampaniyalar keçirilir. Ola bilsin ki, bir çox hallarda göstərilən faiz həqiqəti əks etdirmir. Amma bir çox hallarda vətəndaş reklam olunan banklara inanır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Asif İbrahimov deyib.***




Onun sözlərinə görə, vətəndaşlar reklam vasitəsi ilə gördükləri banklara yaxınlaşır və orada qiymətləndirmə aparıldıqdan sonra, başqa faizlər ortaya çıxır. "Bunun isə bir neçə səbəbi var. Bəzi banklarda baxırıq ki, müəyyən reklam həmləsi kimi göstərilən faiz dərəcələri göstərilir. Amma bəzi köklü banklarda isə bunun obyektiv səbəbləri olur ki, vətəndaşa reklam olunan faiz əmsalı başqadır, amma bankın özündə olan faiz əmsalı isə tam başqadır. Lakin banklarda vətəndaşlar müraciət etdikdə, banklar həmin şəxslərin götürmək istədikləri məbləğin ödəmə qabiliyyətini nəzərə alaraq onların araşdırılmasını həyata keçirir. Hətta qanunvericilikdə olan yeni dəyişikliklər də oldu. Bildiyiniz kimi soisal şəbəkələrdə kredit götürülməsi mövcuddur. Artıq insanlar banklara getmədən çox rahatlıqla kredit götürə bilirlər. Bununla bağlı daha bir məsələni də qeyd edə bilərəm ki, kredit götürərkən banklarda müəyyən komissiyalarda olur, özünün sığorta şərtləri də olur. Bəzən bir çox hallarda ödəmə qabiliyyətindən asılı olaraq orada müəyyən faizlər müəyyənləşdirilir, yeni verdikləri vəsaitin öncədən ilk aylardan, ilk ildən geri qaytarılmasını təmin etmək məqsədi ilə kredit verilir və bununla da yüksək faizlər baş alıb gedir. Bir çox hallarda da, reklam olunan faizlərlə, banklarda olan faizlər başqa olur.

Bununla da insanlar üçün bir çox hallarda çətinlik yaranır və insanlarda məcbur olaraq krediti götürmək üçün hansı faiz dərəcəsindən asılı olmayaraq razı olur. Onu da deyə bilərəm ki, Azərbaycanda hal-hazırda bir çox ölkələrdən fərqli olaraq faiz dərəcəsi çox yüksəkdir. Baxsaq görərik ki, bu faizlər

## İQTİSADÇI FİKRİ

hətta 36 faizə qədər gəlib çıxır. Bununla bağlı düşünürəm ki, Mərkəzi Bankın reqlamentlərində dəyişikliklər edilməlidir. Qanunvericilikdə konkret olaraq bu faizlərin alt-üst limiti müəyyənləşdirilməlidir. İlkin olaraq bəzi addımlar atılmalıdır ki, daha sonra nəzarət mexanizmi işə düşsün".

*Ziya Hikmətoğlu*

# Evlərdən qızıl və pul oğurlayan maskalılar saxlanılıb

***Bakıda maskalanıb oğurluq etməkdə şübhəli bilinən şəxs saxlanılıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, Suraxanı rayonu Qaraçuxur qəsəbəsində naməlum şəxslər gecə saatlarında qəsəbə sakinlərinin birinin mənzilinə daxil olaraq 150 manat nağd pul, 7550 manat dəyərində qızıl-zinət əşyaları, 10 ədəd qol saatı və fotoaparat oğurlayıblar.***

Suraxanı RPİ-nin 32-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə oğurluq əməlini törətməkdə şübhəli bilinənlər - axtarışda olan 35 yaşlı Vüqar Tapdıqzadə və 33 yaşlı Orxan Nəcəfov müəyyən olunaraq saxlanılıblar. Həmin şəxslər oğurluq zamanı mənzildə olan təhlükəsizlik kameralarına düşməmək üçün onun üzərini polietilen paketlə bağlayıblar və xüsusi hazırladıqları maskalardan istifadə ediblər. Faktla bağlı araşdırma aparılır.



# "Barselona"dan son 82 ilin rekordu

"Barselona" son 82 ilin klub rekordunu müəyyənləşdirib. QOL.az xəbər verir ki, bu barədə "Opta" məlumat yayıb. Kataloniya təmsilçisi 2025-ci ildə bütün yarışlarda 11 oyun keçirib, ümumilikdə 41 qol vurub. Bununla da "Barselona" son 82 ilin klub rekorduna nail olub. Belə ki, ilin ilk 11 oyununda 41 qol göstəricisi "Barselona"nın 1943-cü ildən bəri ən yaxşı nəticəsidir.

"Barselona" hazırda La Liqanın turnir cədvəlində 48 xalla 3-cüdür. Komanda Çempionlar Liqasında isə Liqa mərhələsində 2-ci yeri tutaraq birbaşa 1/8 finala vəsiqə qazanıb.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700